# ADP ictimai nəqliyyatda qiymət artımından narahatdır


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№35 (3374) 30 Sentyabr / 2025-ci il   Həftədə 1 dəfə çıxır   Qiyməti: 60 qəpik


ANA XƏBƏR



## Cabir İmanov vəfat etdi

# İctimai nəqliyyatda gediş haqqı artırıldı

Metro və avtobusa əlavə bu qədər pul ödəyəcəyik...



## Putin 135 min nəfəri orduya çağırdı

3

GÜNÜN NƏBZİ

LAYİHƏ

### "Yeni proqram Prezidentin bu mübarizəyə nə qədər önəm verdiyini göstərir"



Millət vəkili Fazil Mustafa: "Biz daha çox narkomaniyanın müalicə istiqamətinə diqqət yetirməliyik"

8

Gündəm

### 3,7 milyonluq korrupsiya iddiası...

Dənizkənarı Bulvar İdarəsinin sabiq sədri məhkəmədə ifadə verdi

4

Təhlil

### Trampın İsraillə bağlı siyasi gedişləri...

Və ya ABŞ Prezidenti Netanyahunun amansız qətliamlarını niyə dəstəkləyir?

5

Siyasət

### "Bu, bizim müharibəmizdir!"

Donald Tusk: "Ukraynadakı müharibə dəhşətli layihənin yalnız bir hissəsidir"

3

Ölkə

### Rüşvət vermədiyi üçün attestat ala bilmədi

308 saylı məktəbin rüşvətlə qovulan sabiq direktoru haqda şok ittihamlar

10

Müsahibə

### "Rusiya çox sürətlə SSRİ-nin taleyini yaşaya bilər"



Ramiz Yunus: "Ərdoğan ABŞ-də rəqiblərinə ustad dərsi verdi"

9

Siyasət

### Bakı-Moskva münasibətlərində yeni dönəm



Politoloq Fərhad Məmmədov: "Əvvəlki dinamikaya qayıtmaq artıq mümkün deyil"

3

Toplum

### Əksər saytlar Əhmədzadənin həbsi haqda niyə yazmadı?

Bəzi media orqanlarının fasiləsiz susqunluğu haqda şok səbəblər üzə çıxdı

"Caspian Logistics Solutions" şirkətinin rəhbəri, SOCAR-ın keçmiş top-meneceri Adnan Əhmədzadənin həbsi bir sıra gizli məqamları ortaya çıxardı. Əlbəttə, biz onun həbsinin səbəbləri haqda mətbuatda səslənən çoxsaylı versiyları yenidən gündəmə gətirmək fikrindən uzağıq. Lakin görünən odur ki, A.Əhmədzadənin həbsi təkcə iqtisadi səbəblərlə əlaqədar deyil. Hətta belə də demək mümkündür ki, ortada siyasi çalarların olduğu da istisna deyil.

7

Fakt

### Sürücülərə qarşı "elektron tərəzi tələsi"

Daha bir sürücü qanunsuz olaraq cərimə yazılmasına etiraz edir

"Hürriyyət" qəzetində Qaradağ rayonu, Korgöz qəsəbə sakini Novruzov Ramiz Yavər oğlu və Bakı şəhəri, Xətai rayon sakini Ağamirzəli Natiq Cəmil oğlu tərəfindən redaksiyamıza daxil olan şikayət məktubunu dərc etmişdik. Şikayətçi Ramiz Novruzov qeyd edirdi ki, Ağstafa rayonu ərazisindəki elektron tərəziyə nəzarət edən şəxslər insanları haqsız yerə cərimə yazır.

6

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№35 (3374) 30 Sentyabr / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# 22 yaşlı gənc öz dəfnində iştirak etdi



Argentinada 22 yaşlı gənсin dəfn mərasimi ailə üzvləri və dostlar üçün gözlənilməz bir hadisəyə çevrilib. Yol qəzasında öldüyü düşünülən gənc "Mən sağam!" deyərək hamını heyrətə salıb.

Hurriyyet.az xarici mediaya istinadla xəbər verir ki, şəkər qamışı daşıyan yük maşını gənci vurduqdan sonra polis əvvəlcə intihar versiyasını nəzərdən keçirib, lakin sonradan işi ehtiyatsızlıqdan adam öldürmə kimi təsnifləyərək məhkəmə-tibbi ekspertiza təyin edilib.

Ertəsi gün bir qadın polisə müraciət edərək ölən şəxsin oğlu olduğunu bildirib və bunu geyim və xarici görünüşə görə təsdiqləyib. Bunu əsas götürən polis əlavə araşdırma aparmadan cəsədi ailəyə təhvil verib.

Dəfn mərasimi həftəsonu keçirilib. Elə bu vaxt mərasimə gəncin özü gəlib sağ olduğunu elan edib. Məlum olub ki, o, bir neçə gündür yüzlərlə kilometr uzaqlıqdakı Alderetes şəhərində məzuniyyətdə olub və baş verən qarışıqlıqdan xəbəri olmayıb. Polis gəncdən ifadə alıb, tabutdakı cəsəd isə yenidən meyitxanaya göndərilib.

Sonrakı araşdırmada məlum olub ki, əslində ölən şəxs Delfin-Gallo şəhərindən olan 28 yaşlı Maksimiliano Enrike Akostadır. Onun ailəsinə cəsəd təqdim olunub və doğma şəhərində dəfn edilib. Həmçinin aydınlaşıb ki, ilkin mərhələdə Akostanın ailəsinə başqa bir şəxsin cəsədini göstəriblər.

Mərhumun qardaşı Hernan bildirib ki, identifikasiya prosesi düzgün aparılmayıb, ailəni bir neçə dəfə meyitxanaya çağırıblar və sənədlər və ekspertizalar tam yoxlanılmadan cəsəd təhvil verilib.

Hadisə ilə bağlı Argentina Baş Prokurorluğu daxili araşdırma başladıb. Hüquq-mühafizə orqanları səhv identifikasiyaya səbəb olan xətaların necə baş verdiyini araşdırır.

## Əyləncə səhifəsi



# Qadın ərinin cinsi orqanını kəsib tualetə atdı

**Cənubi Koreyada qadın ərinə hücum edib cinsi orqanını kəsdikdən sonra onu öldürməyə cəhddə ittiham olunub. Lent.az-ın xarici mediaya istinadla xəbərinə görə, hücum İnçhon şəhərindəki kafedə baş verib. 57 yaşlı qadın kürəkəni ilə ora gedib, kişini tualetdə pusquya salıb və ona hücum edib.**

Kürəkən qayınatasını yapışqan lentlə hərəkətsizləşdirib, bundan sonra qadın kişiyə qasıq nahiyəsinə 50-dən çox bıçaq zərbəsi vurub, sonra onun cinsi orqanını kəsərək tualetə tatıb.

Kafe işçiləri hadisədən sonra təcili yardım çağırıblar. Təcili yardım həkimləri kişinin həyatını xilas edə bilib. Qadın və kürəkəni həbs edilib.

İstintaqın müəyyən etdiyi kimi, hücumdan əvvəl kişi arvadı ilə ayrılıb və onların evindən köçüb. Koreyalı qadın onun hərəkətlərini və təmaslarını izləmək üçün bir yol axtarmağa başlayıb. Qızı ögey atasına nəzarət etmək üçün detektiv tutub. Cinayətkarı bıçaqla silahlanmağa və şübhəli görüşə getməyə məcbur edən, onun təqdim etdiyi fotoşəkillər olub. Həmin fotolarda kişinin bir qadınla yemək yediyi görülür.

Məhkəmədə vəkil müvəkkilinin kişini təqib etdiyini etiraf edib, lakin onu öldürmək niyyətini inkar edib. O, hadisənin adam öldürməyə cəhd kimi təsnif edilə bilməyəcəyinə təkid edib.

Prokurorlar cinayətin vəhşiliyini əsas gətirərək, hökm elan olunana qədər müttəhimin elektron qolbaq taxmasını tələb edir. Müstəntiqlər mümkün motiv kimi qısqanclıq hesab edirlər.



# Neymarla bağlı yeni qalmaqal: Qəlyan çəkir, spirtli içki içir və...

**"Santos"un hücumçusu Neymar həyat tərzi ilə bağlı qalmqalın mərkəzinə düşüb. Əvvəllər braziliyalının zədə aldığı və təxminən bir ayı buraxacağı bildirilirdi. Lakin sonradan onun ilin sonuna kimi sıradan çıxdığı açıqlanıb.**

Xarici medianın xəbərinə görə, jurnalist Rodolfo Qomes iddia edir ki, sağalmasının gecikməsi təkcə tibbi səbəblərlə bağlı deyil. O, həmçinin Neymarın qeyri-sağlam həyat tərzi sürdüyünü iddia edir - o, spirtli və enerji içkilərindən sui-istifadə edir, qəlyan çəkir və səhər gec yatır.

Futbolçunun nümayəndələrinin buna sərt reaksiya verdiyi, jurnalisti böhtan atmaqda günahlandırdığı və məhkəməyə müraciət edəcəyi ilə hədələndiyi bildirilir. Eyni zamanda Qomes açıqlamasının arxasında dayandığını və məhkəmədə ifadə verməyə hazır olduğunu bildirib.

# Məşhur müğənnidən şok açıqlama

## Özcan Deniz: "Bir daha məni görməyə bilərsiniz"

**Müğənni və aktyor Özcan Deniz İstanbulda verdiyi konsertdə səhnədən səsləndirdiyi sözlərlə diqqət çəkib. Türkiyə mediası bildirir ki, sənətçi tamaşaçılara müraciətində bildirib:**

"Hayat məni heç istəmədiyim bir yerə doğru aparır. Arzuolunmaz şeylərin baş vermə ehtimalı yüksəkdir. Bir daha məni görə bilməyə bilərsiniz. Əgər bir daha görüşə bilməsək, 30 il boyunca mənə dəstək olduğunuz üçün sonsuz təşəkkür edirəm".



Bu açıqlama sosial mediada geniş müzakirələrə səbəb olub və sənətçinin musiqi karyerasını dayandıracağı ilə bağlı suallar doğurub.

Qeyd edək ki, Özcan Deniz illər əvvəl qardaşı Ercan Denizin götürdüyü bank kreditlərinə zamin olub. Qardaşının borclarını ödəməməsi səbəbindən sənətçinin əmlakına və gəlirlərinə həbs qoyulub.

Vəkili bildirib ki, bank əvvəlcə Ercan Denizə məxsus girovlu daşınmazlara müraciət etməli idi, lakin birbaşa olaraq zəmanətçi kimi Özcan Denizə qarşı icra tədbirləri görüb.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.



# Cabir İmanov vəfat etdi

## Əməkdar artist idman zalında infarkt keçirib

Əməkdar artist Cabir İmanov vəfat edib.

O, dünən paytaxtın Səbail rayonu Üzeyir Hacıbəyli küçəsində yerləşən idman zalında infarkt keçirib. Hadisə yerinə təcili tibbi yardım briqadası çağırılsa da, 49 yaşlı aktyor vəfat edib.

Qeyd edək ki, baş vermiş hadisə idman zalının kameraları vasitəsilə anbaan lentə alınıb.

Məlum olub ki, Əməkdar artist məşq zalında müvazinətini itirərək yıxılıb. Onun yaxınlığındakı şəxslər dərhal kömək etməyə çalışaraq ürək masajı ediblər.

C.İmanovun ürək fəaliyyətini bərpa etmək üçün ona elektroşok da tətbiq edilib. Lakin bu prosesin 20 dəqiqə davam etməsinə baxmayaraq, 49 yaşlı aktyorun həyatını xilas etmək mümkün olmayıb.

TƏBİB-in yaydığı məlumata görə, sentyabrın 29-d saat 13:38-də Səbail rayonu Üzeyir Hacıbəyli küçəsi ərazisindən əməkdar artist Cabir İmanovun (1976-cı il təvəllüdlü) səhhətinin pisləşməsi (yıxılma) səbəbilə Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə çağırış daxil olub.

Çağırış ünvanına dərhal təcili tibbi yardım briqadası cəlb olunub. Saat 13:50-də briqada tərəfindən Əməkdar artistin həkiməqədər ölüm faktı qeydə alınıb.

**KƏNAN**

# Məhkəmə Saakaşvili ilə bağlı qərar verdi

**Tbilisi Şəhər Məhkəməsi Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili ilə bağlı qərar qəbul edib. "Report"un Gürcüstan bürosu xəbər verir ki, məhkəmə Maliyyə Nazirliyinin iddiasını təmin edərək dövlət büdcəsindən mənimsənildiyi deyilən 9 milyon larinin (3 milyon 330 min dollar) geri qaytarılmasına qərar verib.**



Qərara əsasən, Saakaşvili və Dövlət Təhlükəsizlik Xidmətinin keçmiş rəisi Teimuraz Janaşiya dövlətə ümumilikdə 9 milyon lari ödəməlidirlər.

Xatırladaq ki, hər iki şəxs Gürcüstan Cinayət Məcəlləsinin 182-ci maddəsinin ikinci və üçüncü bəndləri ilə - "vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə, qrup halında böyük məbləğdə vəsaitin qanunsuz mənimsənilməsi" ittihamı üzrə məhkum olunmuşdu. Bu iş üzrə Saakaşviliyə 8 il həbs cəzası, Janaşiyaya isə 300 min lari (106 min dollar) cərimə kəsilmişdi.

Daha sonra dövlət onların əleyhinə məşhur "Pincaklar işi" çərçivəsində məhkəməyə mülki iddia qaldırmış və büdcəyə dəymiş ziyanın ödənilməsini tələb etmişdi.

# ADP ictimai nəqliyyatda qiymət artımından narahatdır

## Partiya hökuməti minimum əməkhaqqını artırmağa, aztəminatlı ailələrə sosial yardım edilməsinə çağırdı

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib.**

Partiyanın Mətbuat Xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə BMT Baş Assambleyasının 80-ci sessiyasının nəticələri ilə bağlı məsələlərə münasibət bildirib. Partiya yetkililəri dövlət başçısı İ.Əliyevin sessiyada etdiyi çıxışın, 30 il icrasız qalan BMT qətnamələrinin sonda dövlətimizin öz gücü ilə həllini tapması, bundan sonrakı dövr ərzində sülh sazişinin bağlanması istiqamətində göstərdiyi ciddi səylərin davam etməsi barədə səsləndirdiyi bəyanatların Azərbaycanın milli və dövlət maraqlarına xidmət etməsi baxımından təqdirəlayiq olduğunu qeyd etməklə yanaşı, bu qurumun artıq beynəlxalq problemlərin, qanlı münaqişələrin həllində aciz qaldığını diqqətə çatdırıb və yeni dünya düzəninə uyğun daha mükəmməl, daha çevik beynəlxalq bir qurumun yaradılmasına ehtiyac duyulduğunu qeyd edib.

İdarə Heyəti son vaxtlar sosial şəbəkələrdə separatizm meyllərinin təşviqi ilə bağlı materialların gündəmə gəlməsindən, etnik separatçı meyllərin təzədən qızışdırılmasından, qardaş Türkiyə ilə Azərbaycan arasında ədavətin körüklənməsinə xidmət edən məqsədyönlü və təxribat xarakterli məlumatların tirajlanmasından ciddi narahat olduğunu bildirib və hakimiyyət orqanlarını düşmən dövlətlərin əli ilə yayımlanan bu cür pozucu hallara qarşı ayıq-sayıq olmağa və əks təbliğat işini gücləndirməyə səsləyib.

İdarə Heyəti 27 sentyabr Anım günü ilə əlaqədar 44 günlük Vətən müharibəsində, eləcə də bundan əvvəl və sonrakı dövrdə həlak olan hərbçi və mülki vətəndaşlarımızın şəhadətə qovuşmasını dərin hüznlə yad edib, onların ailələrinə, bütövlükdə Azərbaycan xalqına başsağlığı ünvanlayıb. Qeyd olunub ki, dövlət şəhid olan övladlarını, qazilərini heç vaxt unutmamalı, onların Azərbaycan xalqının müstəqilliyi, suverenliyi uğrunda apardığı qəhrəmanlıq nümunələrini dərsliklərdə, bədii əsərlərdə, filimlərdə təcəssüm etdirməli və onların ruhunun şad olması üçün cəmiyyətimizin rifah halında yaşaması, sosial-iqtisadi həyatının yaxşılaşdırılması, insan hüquq və azadlıqları ilə təmin olunması üçün effektli tədbirlər görməlidir.

İdarə Heyəti son vaxtlar güclü yağıntılar nəticəsində bərpa-quruculuq işlərinin aparıldığı işğaldan azad edilən ərazilərimizdə bir neçə yaşayış məntəqəsinin, tikilən körpülərin, çəkilən yolların sel altında qalması faktına diqqət çəkib və bu tikintilər üçün kifayət qədər maliyyə vəsaiti ayrılmasına baxmayaraq, ayrı-ayrı sifarişçi təşkilatlar, tender qalibləri tərəfindən mənimsəmələr, aparılan yararsız işlər nəticəsində böyük dağıntılar baş verməsindən ciddi narahat olduğunu bildirib və hakimiyyət yetkililərini bu sahəyə məsul şəxslərin cəzalandırılmasına çağırıb.

İdarə Heyəti ictimai nəqliyyatda gediş haqqının artırılması məsələsinə münasibət bildirib və bu tədbirin ictimai nəqliyyat xidmətinin keyfiyyətinin davamlı olaraq yüksək səviyyədə saxlanılması və avtobus parkının yenilənməsi, yeni metro stansiyalarının salınması, daha müasir tələblərə cavab verən vaqonların alınması məqsədi ilə həyata keçirilməsini qeyd etməklə, aşağı əməkhaqqı şəraitində bu artımların əhalinin aztəminatlı hissəsinin güzəranına mənfi təsir göstərməsindən narahat olduğunu bildirib. İdarə Heyəti istər istehlak bazarında müşahidə olunan kəskin qiymət artımı, istər də ictimai nəqliyyatda gediş haqqının artırılması müqabilində hökumətin minimum əməkhaqqı məbləğinin artırması, aztəminatlı ailələrə bu və ya digər formada sosial yardım edilməsinə doğru addımlar atmasının vacibliyini xüsusi qeyd edib.

**Hazırladı: KƏNAN**

# AYNA-nın bir şirkətlə 50 milyonluq tendersiz satınalmaları ortaya çıxdı

**Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) böyük məbləğdə tendersiz satınalmaları məlum olub.**

Hurriyyet.az xəbər verir ki, söhbət eyni xidmətin bir neçə hissə ilə eyni şirkətə sifariş verilməsindən gedir.

Belə ki, AYNA Bakı şəhəri və respublikanın digər ərazilərində xətləmə və nişanlama işi ilə bbağlı böyük sifarişləri tendersiz olaraq STP-BTECH MMC-yə verib.

Agentliklə «STP-BTECH» MMC-nin əməkdaşlığı 2024-cü ildən, «STP-BTECH» yaranandan dərhal sonra başlayıb.

2024-cü ilin sentyabrında şirkət AYNA-dan tendersiz ilk sifariş alıb - Ölkə ərazisində, o cümlədən Bakı şəhərində nişanlanma işləri üçün Agentlik «STP-BTECH»ə 3 milyon 669 min manatlıq sifariş verib.

Təxminən həmin vaxtda Agentlik "STP-BETCH" MMC ilə tendernsiz 2-ci müqaviləsini bağlayıb - Təmir olunan küçə və prospektlərdə eləcə də əsas magistral yollarda yol nişanlarının quraşdırılması və xətlənmə işləri üzrə müqaviləyə əsasən Agentlik bu işlərə görə şirkətə 16 milyon 924 min manat vəsait ödəməlidir.

2025-ci ilin mayında şirkət AYNA-dan növbəti tendersiz sifariş alıb - "STP-BTECH" ilə (VÖEN-i 2907446991) Respublika ərazisində xətlənmə işləri ünin 17 milyon 603 min manatlıq müqavilə imalanıb. Bundan cəmi 1 ay sonra AYNA "STP-BTECH" ilə yenə də respublika ərazisində yolların nişanlanma işlərinin satın alınması üzrə növbəti tendersiz müqavilə imzalayıb - bunun məbləği 14 milyon 692 min manat olub.

Başqa sözlə, AYNA demək olar ki, eyni tipli işlərin görüşlməsi üçün bir ildən də az olan müddətdə eyni şirkətə 52,9 milyon manatlıq tendersiz sifariş verib. Maraqlıdır ki, adətən tendersiz, bir mənbədən olan müqavilələr mürəkkəb, bir şirkətin həyata keçirilməsi ilə mümkün olan işlər üzrə bağlanılır. Yolların xətlənməsi xidməti isə belə işlərə aid deyil.

Xatırladaq ki, "STP-BTECH" MMC 2024-cü ildə yaradılıb, nizamnamə kapitalı 240 min manat, qanuni təmsilçisi Emre Yalcındır.

# Bakı-Moskva münasibətlərində yeni dönəm

## Politoloq Fərhad Məmmədov: "Əvvəlki dinamikaya qayıtmaq artıq mümkün deyil"



**"Azərbaycan və Rusiya münasibətlərində əvvəlki dinamikaya qayıtmaq artıq mümkün deyil". Bunu politoloq Fərhad Məmmədov Rusiya - Azərbaycan münasibətlərinin indiki durumu və perspektivlərini şərh edərkən bildirirb.**

Ekspert hesab edir ki, AZAL təyyarəsinin vurulması və Moskvanın reaksiyası əlaqələrdə ciddi deqradasiyaya səbəb olub: "Əvvəllər Azərbaycan və Rusiya liderləri ildə bir neçə dəfə görüşür, yüksək səviyyədə əlaqələri operativ şəkildə koordinasiya edirdilər. Xarici siyasət baxışları bir-birinə uyğun idi, beynəlxalq arenada qarşılıqlı təzyiqlərdən qaçılırdı. İqtisadi əlaqələr strateji layihələr (Şimal-Cənub dəhlizi, energetika) və qarşılıqlı investisiyalar üzərində qurulmuşdu. VTS əməkdaşlığı mövcud olsa da, 2022-ci ilin fevralından sonra praktiki olaraq dayandırıldı.

Humanitar sahə - rusların Azərbaycandakı mövcudluğu, azərbaycanlıların Rusiyadakı vəziyyəti və rus dilinin rolu - münasibətləri emosional baxımdan gücləndirirdi".

Mövcud durum barədə danışan ekspert qeyd edib ki, hazırda yüksək səviyyəli siyasi dialoq yoxdur, son altı ayda liderlər yalnız bir dəfə təbrikləşiblər: "Yüksək səviyyəli dialoq yalnız vitse-prezidentlər və hökumətlərarası komissiyalar çərçivəsində baş verir. Yeni normanın formalaşması bu səviyyədə gedir, yəni siyasi və humanitar sahələrdə avtonomiya yaradılmalıdır".

Politoloq bildirib ki, 7 oktyabr - Rusiya Prezidentinin doğum günü Azərbaycan tərəfi üçün test olacaq, Prezident İlham Əliyev hər il adət üzrə zəng edir, bu il vəziyyət necə olacaq, görünəcək.

Gələcək perspektivlər barədə danışan Fərhad Məmmədov hesab edir ki, xarici siyasət baxışları artıq avtomatik uyğunlaşmayacaq. Onun sözlərinə görə, Şimal istiqamətinin rolu azalır, yeni əlaqələr əsasən Azərbaycan Xarici İşlər Nazirliyi vasitəsilə qurulacaq. "İqtisadiyyat əsas sahə olacaq, çünki burada həm Bakı, həm Moskva üçün maraqlar və qarşılıqlı fayda var", - o əlavə edib.

Fərhad Məmmədov qeyd edib ki, humanitar sahə deqradasiyaya uğrayıb: "Burada müsbət dinamika yaratmaq çətindir. Rusiyada azərbaycanlılara qarşı təzyiqlər ticarət və investisiyalara mənfi təsir göstərə bilər".

Fərhad Məmmədov heab edir ki, strateji layihələr - Şimal-Cənub dəhlizi və Zəngəzur koridoru həm Bakının, həm də Moskvanın marağındadır və onlar davam etdiriləcək.

Onun sözlərinə görə, AZAL təyyarəsinin vurulması məsələsində ilin sonuna qədər aydınlıq yaranacaq: "Moskva Bakının gözləntilərinə uyğun qərar qəbul edərsə, böhranın kökü aradan qalxacaq; əks halda beynəlxalq məhkəmə prosesləri gündəmə gələcək".

Politoloq hesab edir ki, yeni norma iqtisadi əlaqələrin davam etməsi ilə, lakin siyasi dialoq və xarici siyasət sahəsində minimal uyğunlaşma ilə mümkün ola bilər. Onun sözlərinə görə, humanitar sahədəki risklər isə diqqətlə idarə edilməlidir.

O əlavə edib: "Profil strukturlar iqtisadiyyatın siyasətdən və humanitar təzyiqlərdən avtonomiyasını təmin edə bilsə, yeni normalar daha davamlı olacaq. Əsas odur ki, qarşılıqlı gözləntilər yeni çərçivədə möhkəmlənsin".

**RASİM**

# "Bu, bizim müharibəmizdir!"

## Donald Tusk: "Ukraynadakı müharibə dəhşətli layihənin yalnız bir hissəsidir"

**Polşanın Baş naziri Donald Tusk Qərb cəmiyyətlərini Ukraynadakı müharibənin başqasının münaqişəsi deyil, "bizim müharibəmiz" olduğunu qəbul etməyə çağırıb.**

"AzPolitika" xarici KİV-ə istinadla xəbər verir ki, o, bu barədə Varşava Təhlükəsizlik Forumunun açılışındakı çıxışı zamanı bildirib.

Polşanın Baş naziri vurğulayıb ki, sadə bir həqiqət Qərbə və transatlantik ictimaiyyətə çatdırılmalıdır: müharibə gedir və sülh əbədi olaraq təmin olunmayıb: "Bu, yalnız dünyanın bu hissəsinə xas olan bir şey deyil".



Tusk qeyd edib ki, həm Varşavada, həm də başqa yerlərdə tez-tez "bunun bizim müharibəmiz olmadığını və bizə aidiyyatı olmamalıdır" deyən səslər eşidilir: "Biz başa düşməliyik ki... bu, bizim müharibəmizdir, çünki Ukraynadakı müharibə dünyada zaman-zaman ortaya çıxan dəhşətli layihənin yalnız bir hissəsidir. Və bu siyasi layihənin məqsədi həmişə eynidir: xalqları necə əsarət altına almaq, ayrı-ayrı şəxsləri azadlığından necə məhrum etmək, avtoritarizmin, despotizmin, qəddarlığın zəfər çalmasını necə təmin etmək. Əgər bu müharibəni uduzsaq, nəticələr təkcə bizim nəsillərə deyil, həm də gələcək nəsillərə təsir edəcək. Polşada, bütün Avropada, ABŞ-də, bütün dünyada".



# Putin 135 min nəfəri orduya çağırdı

## 18-30 yaşlı şəxslərlə bağlı fərman verildi

**Rusiya Prezidenti Vladimir Putin müddətli həqiqi hərbi xidmətə çağırışçıların payızda hərbi xidmətə çağırılması haqqında fərman imzalayıb.**

Bu fərmana əsasən, 18-30 yaşlı 135 min nəfər hərbi xidmətə çağırılacaq.

Sentyabrın 24-də Rusiya Dövlət Duması gələn il yanvarın 1-dən qüvvəyə minməsi gözlənilən, ilboyu hərbi xidmət haqqında qanun layihəsini birinci oxunuşda qəbul edib. Bu qanuna əsasən, vətəndaşlar ildə iki dəfə - aprelin 1-dən iyulun 15-dək və oktyabrın 1-dən dekabrın 31-dək davam edən müddətlərdə, həmçinin yanvarın 1-dən dekabrın 31-dək istənilən vaxt həqiqi hərbi xidmətə çağırıla bilərlər.

Artıq hərbi komissarlıqlar ilboyu çağırışçıların tibbi və psixoloji müayinəsini həyata keçirə, həmçinin çağırış komissiyalarının mütəmadi iclaslarını təşkil edə biləcəklər.

# Rusiyada daha bir qərəzli məhkəmə qərarı

## Şıxlinskinin apelyasiya şikayəti təmin olunmadı

**Sverdlovsk vilayət məhkəməsində Yekaterinburqdadakı Azərbaycan diasporunun sədrinin oğlu Mütvalı Şıxlinskinin barəsində seçilmiş həbs-qətimkan tədbiri hökmündən verilmiş apelyasiya şikayətinə baxılıb.**



APA-nın Rusiya bürosu xəbər verir ki, vilayət məhkəməsi birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb.

Yekaterinburq şəhərinin Verx-İsetski Rayon Məhkəməsinin 8 sentyabr 2025-ci il tarixli hökmü ilə Mütvalı Şahin oğlu Şıxlinskinin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti uzadılıb. İbtidai istintaq onu Rusiya Cinayət Məcəlləsinin 318-ci maddəsinin 2-ci hissəsində nəzərdə tutulan cinayəti törətməkdə ittiham edir.

Şıxlinskinin vəkili qərardan Sverdlovsk vilayət məhkəməsinə şikayət etsə də, nəticəsi olmayıb. Apellyasiya məhkəməsi apellyasiya şikayətini təmin etmək üçün heç bir əsas görməyib.

Qeyd edək ki, birinci instansiya məhkəməsi M.Şıxlinskinin 2025-ci il dekabrın 14-dək həbsdə qalacağı barədə qərar çıxarıb.

Xatırladaq ki, M.Şıxlinskinin həbsinə iyulun 1-də "Baku Plaza"nın yaxınlığında baş vermiş vəziyyət səbəb olub. Federal Təhlükəsizlik Xidmətinin (FSB) əməliyyatçıları üzərində heç bir tanınma nişanı olmayan geyim və avtomobillərlə Yekaterinburqdakı Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlinskiyə oğlunun idarə etdiyi avtomobillə hücum ediblər. Bu zaman Mütvalı Şıxlinski özünü itirərək idarə etdiyi avtomobillə FSB əməkdaşını vurub. O, özü məhkəmədə baş baş verənlərdən peşman olduğunu, hadisəni qəsdən törətmədiyini bildirib.

# İctimai nəqliyyatda gediş haqqı artırıldı

**1 oktyabr 2025-ci il tarixindən etibarən ölkədə ictimai nəqliyyatda gediş haqqı artırılacaq. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində metro tarifləri bir gediş üçün 60 qəpik, müasir avtobus marşrutlarında isə məsafədən asılı olaraq minimum 60 qəpik müəyyən edilib.**

Qeyd olunur ki, yeni tariflərin tətbiqi əsasən ekoloji cəhətdən təmiz avtobuslara və yalnız nağdsız ödəniş sistemi ilə işləyən marşrutlara aid olacaq. Bildirilir ki, qiymət artımının məqsədi daşıyıcıların maliyyə dayanıqlığını artırmaq, avtobus parkını müasirləşdirmək və sərnişindaşımada şəffaflığı təmin etməkdir.

Məlumat üçün bildirək ki, hazırda metro və avtobusda gediş haqqı 50 qəpik təşkil edir. Bu halda bir nəfərin gündəlik gedişgəlişi (metro və avtobusla) 2 manat təşkil edir - 1 manat metroya, 1 manat isə avtobusa sərf olunur.

Aylıq hesabla ( orta hesabla 25 iş günü) bir nəfərin ümumi xərci minimum 50 manata, dörd nəfərlik ailənin xərci isə 200 manata bərabərdir.

Qiymətlərin 60 qəpiyə qaldırılmasından sonra isə gündəlik gediş-gəlişin qiyməti bir nəfər üçün 2 manat 40 qəpik olacaq. Artıq metroya 1 manat 20 qəpik, avtobusa da 1 manat 20 qəpik xərclənəcək. Aylıq hesablamada bir nəfərin xərci 60 manata, dörd nəfərlik ailənin xərci isə 240 manata çatır.

Beləliklə, qiymət artımı dörd nəfərlik ailənin aylıq nəqliyyat xərclərini azı 40 manat artıracaq. Bu fərq minimum əməkhaqqı ilə müqayisədə diqqət çəkir. Hazırda minimum əməkhaqqı 400 manatdır və təkcə nəqliyyat xərclərindəki bu dəyişiklik ailə büdcəsinə təxminən 10 faiz əlavə yük yaradır. Yəni, qiymət artımı gündəlik həyatda xırda məbləğ kimi görünsə də, aylıq hesablama zamanı azgəlirli ailələr üçün ciddi maliyyə yükünə çevrilir. Buna görə də hökumətin minimum əməkhaqqını da artırması zəruridir.



## Metro və avtobusa əlavə bu qədər pul ödəyəcəyik...

Bu barədə iqtisadçı Natiq Cəfərli "AzPolitika"ya şərhində bildirib ki, bu günə qədər ictimai nəqliyyatda bir neçə dəfə qiymət artsa da, keyfiyyətin yüksəlməsində nəzərəçarpacaq dəyişiklik müşahidə olunmayıb: "Son 10 ildə bu sahədə bu addımlar atılıb. Bəs keyfiyyət artıbmı? Təəssüf ki, yox. Ona görə də bizdə ictimai nəqliyyatda qiymət artımı yalnız bu sahədə xidmət göstərən dövlət və özəl şirkətlərin gəlirlərini artırır, keyfiyyəti isə artırmır".

"Biz dəfələrlə təklif etmişik ki, günlük, saatlıq, həftəlik, 6 aylıq və 1 illik biletlər olmalıdır. Gediş qiymətə yox, zamana bağlı olmalıdır. Belə olduqda birdəfəlik gediş haqqının heç bir əhəmiyyəti olmayacaq. Bu isə əsasən turistlərə və nəqliyyatdan az istifadə edən sərnişinlərə aid ola bilər. Amma təəssüf ki, bunu həyata keçirmirlər. Bu haqda müzakirələr getsə də, əməli addımlar görməmişik. Ona görə də düşünürəm ki, nəqliyyatda gediş haqqının artımı ilə keyfiyyətin artımı arasında heç bir bağlılıq yoxdur. Bu günə qədər biz bunu görməmişik, bu artımdan sonra da keyfiyyətin yüksələcəyini söyləmək çox çətindir", - deyə ekspert qeyd edib.

İqtisadçı Xalid Kərimli isə "AzPolitika"ya şərhində bildirib ki, metro və avtobus insanların kütləvi şəkildə istifadə etdiyi nəqliyyat vasitələridir və burada qiymətlərin 20 faiz artırılması aztəminatlı insanlara problem yaradacaq: "Amma operatorlar və özəl sektor xərclərinin ciddi şəkildə artdığını, ziyanla işlədiklərini əsas gətirirlər. Onlar həm də avtobus parkının yenilənməsi üçün çox böyük vəsait tələb olunduğunu vurğulayırlar. Hökumət də qiymətləri birdən-birə yox, tədricən artırır. Ötən ili xatırlayırsınızsa, gediş haqqı 40 qəpikdən 50 qəpiyə qalxmışdı, bu il isə 60 qəpiyə çatdı".

"Qiymətlərin artmasının səbəbi kimi göstərilir ki, avtobuslar xaricdən alınır, onların ehtiyat hissələri idxal olunur, yanacaq isə dünya bazar qiymətləri ilə eynidir. ABŞ-da benzin qiymətləri ilə Azərbaycandakı qiymətlərin demək olar ki, eyni olması buna nümunədir. Amma ölkə daxilində işçi qüvvəsinin maaşı Amerikadakından qat-qat aşağıdır. Hökumət ya avtobus parkını yenilənməməli, bu xidmət sınıqsalxaq avtobuslarla göstərilməlidir, ya da deyir ki, parkı yeniləyək, nağdsız ödənişə keçək. Amma bütün bunlar sahibkarların xərclərini artırır və nəticədə qiymət artımı qaçılmaz olur", - deyə ekspert qeyd edib.

Ekspert sahibkarların bu sahədə üzləşdikləri çətinliklərə də toxunub:"Avtobuslar çox bahalıdır, sahibkarlar onları almaq üçün kredit götürürlər, üstəlik baxım xərci də var. Əmək bazarında isə işçi tapmaq çətindir. Bütün bunlara görə sahibkarlar qiymətlərin artırılmasını tələb edirlər. Hökumət də bu müraciətləri araşdıraraq mərhələli şəkildə qiymətləri artırır. Hətta təkliflərdən biri dövlət büdcəsindən subsidiya ayrılması, mərkəzləşdirilmiş fond yaradılması idi. Bu məsələ ilə bağlı da hökumət AYNA-ya 2-3 ay vaxt vermişdi ki, təklif hazırlayıb təqdim etsinlər. Avtobuslara subsidiya məsələsi də gündəmdədir".

Xalid Kərimlinin fikrincə, qiymət artımı keyfiyyət dəyişikliyi ilə müşayiət olunmayacaq. Amma elektriklə işləyən, CNG ilə hərəkət edən müasir avtobusların alınması üçün şərtlər yaradılarsa, bu, provayderlər üçün maraqlı ola bilər və onları bu tip avtobuslar almağa həvəsləndirə bilər.

Qeyd edək ki, son illərin statistik təhlilləri göstərir ki, ölkədə ictimai nəqliyyatda gediş haqqının artım tempində ciddi canlanma müşahidə olunur.

Məsələn, 2007-2017-ci illərdə avtobus və metroda sərnişin daşıma qiymətləri 20 qəpik təşkil edirdisə, 2018-ci ildən sonra gediş haqları 30 qəpiyə artırılmışdı. Bu dövr ərzində artım 50% olmuş, yəni orta illik artım təxminən 4,5% təşkil etmişdir. 2018-2024-cü illərdə tarif daha sürətlə artaraq 50 qəpiyə çatmış, bu isə 66,7%-lik artım deməkdir. Bu, illik ortalama 10,7%-lik artım göstəricisidir ki, əvvəlki dövrə nisbətən iki dəfə yüksəkdir. Ümumilikdə, 2007-2024-cü illər ərzində Bakı avtobus tarifləri 150% artmışdır. Sözügedən artım həm iqtisadi faktorlarla, həm də nəqliyyat xərclərinin yüksəlməsi ilə izah olunur.

Metroya gəlincə, burada da son illər gediş haqqının artımı diqqətçəkən məsələlərdən biridir. 2018-ci ildə metroda bir gedişin qiyməti 30 qəpik müəyyən edilmişdi. 2023-cü ilə qədər bu tarif 40 qəpiyə yüksəldi ki, bu da təxminən 33,3% artım deməkdir. Bu dövrdə illik orta artım təxminən 6,7% təşkil edib.

Sonrakı iki ildə, yəni 2023-2025-ci illərdə metro gediş haqqı 50 qəpiyə çatdırılıb. Bu dövrdə artım tempi daha da sürətlənib - ümumən 25% artım əldə alınıb. İllik orta artım 12,5% təşkil edib ki, bu da əvvəlki dövrə nisbətən təxminən iki dəfə yüksəkdir. Ümumilikdə, 2018-2025-ci illər ərzində metro gediş haqqı 30 qəpikdən 50 qəpiyə yüksələrək 66,7% artım göstərmişdir. Statistik təhlil bir daha göstərir ki, avtobusda olduğu kimi, burada da artım tempi xüsusilə son iki ildə sürətlənib.

> İqtisadçı Xalid Kərimli isə "AzPolitika"ya şərhində bildirib ki, metro və avtobus insanların kütləvi şəkildə istifadə etdiyi nəqliyyat vasitələridir və burada qiymətlərin 20 faiz artırılması aztəminatlı insanlara problem yaradacaq: "Amma operatorlar və özəl sektor xərclərinin ciddi şəkildə artdığını, ziyanla işlədiklərini əsas gətirirlər. Onlar həm də avtobus parkının yenilənməsi üçün çox böyük vəsait tələb olunduğunu vurğulayırlar. Hökumət də qiymətləri birdən-birə yox, tədricən artırır. Ötən ili xatırlayırsınızsa, gediş haqqı 40 qəpikdən 50 qəpiyə qalxmışdı, bu il isə 60 qəpiyə çatdı".

**ELVİN**

Hürriyyət

Təhlil

SİZİN ÜÇÜN QƏZET

№35 (3374) 30 Sentyabr / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



Dünya yəhudiliyi ikiyə parçalanmış durumda: sionist cinahla qlobalçı cinah arasında çox dərin uçurum yaranıb

# Trampın İsraillə bağlı siyasi gedişləri...

## Və ya ABŞ Prezidenti Netanyahunun amansız qətliamlarını niyə dəstəkləyir?

**Bütün dünya, sözün tam mənasında, İsrailin üzərinə yeriyir. Sual yaranır: qlobal miqyasda hədsiz böyük gücə sahib olan yəhudi faktoru harada qalıb ki, İsrail belə böyük təzyiqlə üz-üzədir? İlk baxışda çətin görünən bu sualın cavabı əslində xeyli sadədir: dünya yəhudiliyi iki böyük qrupa parçalanıb. Bir qədər ümumiləşdirərək bu qrupları belə ifadə etmək olar:**

Birinci qrup sionistlərdir. Onlar Nil çayından Türkiyənin cənub-şərqinə qədər uzanan geniş ərazilərdə - "Vəd olunmuş torpaqlarda" Böyük İsrail dövlətinin qurulmasına çalışırlar. Netanyahu həmin qrupun təmsilçisidir. Bu anlayış yəhudi toplumuna "Eres İsrael" kimi təqdim olunur.

İkinci qrup isə liberal qlobalçılardır. Onlar dünya üzərində təsir gücünü daha da artırmağa çalışırlar. Bu qrupu yönləndirənlər - başda ABŞ-ın Federal Rezerv Sistemi (FED) olmaqla, 40-a yaxın dövlətin mərkəzi bankını öz təsir dairəsində saxlayan yəhudi ailələridir. İngiltərə, Almaniya, Rusiya, Çin, Türkiyə, Fransa və digər ən önəmli dövlətlərin mərkəzi banklarının maliyyə-kredit sisteminin əsas istiqamətlərini bu ailələrlə uzlaşdırmaq zorundadırlar. Dövlətlər böyük ailələrin razılığı olmadan öz mərkəzi banklarına rəhbər təyin edə bilməzlər. Başqa sözlə, yəhudi toplumunun liberal-qlobalçı qanadı maliyyə sistemi vasitəsilə dünyanın çox əhəmiyyətli hissəsi üzərində ciddi nəzarət mexanizmi yarada bilib.

Sionistlər nəyin bahasına olursa-olsun Böyük İsraili yaratmağa çalışırlar. Gücləri yetmir, amma gələcək İsrail torpaqları kimi gördükləri Fələstin, Livan, Suriya kimi qonşuları ilə açıq konfliktdədirlər.

Qlobalçılar isə "Eres İsrael" ideyasını qəbul etməsələr də, son dövrlərə qədər İsrail dövlətinin bu yöndəki çalışmalarına nisbətən təmkinlə yanaşırdılar.

HƏMAS-ın 7 oktyabr terroru məsələni kökündən dəyişdi. Əslində terror aktının özü beynəlxalq imic baxımından həm sionistlərin, həm də qlobalçı yəhudilərin lehinə işləyirdi. Lakin Netanyahu hökumətinin terrora hədsiz böyük qətliamlarla cavab verməsi işi tərsinə çevirdi. Ağına-bozuna baxmadan şəhərləri ağır aviazərbələrlə yerləyeksan etmək, on minlərlə günahsız insanı qətlə yetirmək bütün dünyanı İsrail düşməni etdi.

Məsələ yalnız İsraillə bitmir. Bütün dünya yəhudiləri Netanyahunun aviazərbələrinin "qurbanına" çevrilirlər. Hər yerdə misli görünməmiş yəhudi düşmənçiliyi vüsət almaqdadır. Dünyanın müxtəlif ölkələrində istirahətə gələn yəhudi hərbçiləri həbs olunur, hətta avropalılar yəhudi turistləri otellərdən qovurlar.









Antiyəhudi dalğası, heç şübhəsiz, dünya idarəçiliyini möhkəmləndirməyə çalışan qlobalçı yəhudilərdən də yan keçmir. Sionistlərin qətliamları dünya ictimai rəyini yəhudiliyə qarşı çevirirsə, bu təzyiq qlobalçı yəhudilərə qarşı da yönəlir.

Qlobalçıların sionistlərə yanaşması təxminən belədir: "Dünyanın çox kiçik bir hissəsini ələ keçirməyə çalışırsınız, amma bizim bütün dünya üzərindəki təsir gücümüzü baltalayırsınız."

Başqa sözlə, dünya yəhudiliyinin daxilində sionist cinahla qlobalçı cinah arasında çox dərin uçurum yaranıb. Maraqlar toqquşur və tərəflərdən heç biri geri addım atacaq kimi görünmür. Sionistlərin hər addımı antiyəhudi ovqatını gücləndirir və qlobalçılar bunun qarşısını almaq məcburiyyətində qalırlar.

Bu kontekstdən yanaşdıqda, qlobalçıların təsir dairəsində olan Avropa dövlətlərinin və Çinin sərt anti-İsrail tutumunun mahiyyəti anlaşılır. İngiltərə, Fransa, Hollandiya, İspaniya, Çin və digər dövlətlər İsrail əleyhdarı və Fələstin tərəfdarı kimi çıxış edirlər. Aydındır ki, bu dövlətlərin anti-İsrail tutumunun arxasında müsəlman Fələstinlə bağlı sevgi dayanmır. Belə dövlətlərin əksəriyyətində anti-Islam ideyaları geniş yayılıb. Onların anti-İsrail siyasətinin əsl səbəbi odur ki, qlobalçı yəhudilər sionist İsraili cilovlamaq, qanuni sərhədlər çərçivəsinə qaytarmaq üçün çaba göstərirlər.

Bu səbəbdən qlobalçıların nəzarətində olan beynəlxalq təşkilatlar və media qurumları sionistlərin üzərinə ayaq açır. Qlobalçılarla birgə hərəkət edən Avropa dövlətlərində yüz minlərlə insan küçələrə çıxarılır, dövlətlər İsrailə qarşı təzyiq və sanksiya mexanizmlərini işə salırlar. Qlobalçı mediada yayılan əhval-ruhiyyəyə görə, hətta İsrail dövlətinin xəritədən silinməsi də mümkün variantlar arasındadır.

Gələk ABŞ Prezidenti Donald Trampın Netanyahu və sionist İsrailə verdiyi dəstəyə. Tramp və komandasının həqiqi niyyətlərini bilmirik. Amma ortalıqda, şahmat termini ilə desək, bir "at gedişi" məsələsi var. Tramp açıq şəkildə bəyan edir ki, Birləşmiş Ştatları qlobalçıların toxunduğu dərin dövlətdən, FED-i isə yəhudi ailələrinin caynağından xilas etməyə çalışır. Tramp və komandası gözəl anlayır ki, sionistlərin amansız qətliamları bütün dünyanı yəhudi faktoruna qarşı - deməli, həm də qlobalçı yəhudi ailələrinə qarşı ayaqlandırır. Bu qətliamlar nə qədər uzun müddət davam edəcəksə, dünya yəhudiliyinin hər iki qanadı o qədər böyük zərbə alacaq.

Qısası, İsraili bütün növ silahlarla təmin edən və Netanyahunu qeyd-şərtsiz dəstəkləyən Tramp yəhudi faktoru ilə bağlı ikili qazanc əldə edir. O, bir tərəfdən ABŞ siyasətinə ciddi sirayət etmiş sionist lobbinin dəstəyini qazanır, digər tərəfdən isə bütün dünyada vüsət alan antiyəhudi alovunu körükləyir və yenməyə çalışdığı qlobalçı yəhudiləri zəiflədir.

**Namiq BİLAL**

# Netanyahu çətin seçim qarşısında...

## Yəhudi Baş nazir soyqırımı davam etdirəcək, yoxsa...?



**İsrailin Baş naziri Benyamin Netanyahunun bazar ertəsi Vaşinqtonda keçiriləcək görüşü təkcə diplomatik gündəmin deyil, həm də onun siyasi karyerasının həlledici məqamı kimi dəyərləndirilir.**

Bu barədə "Jerusalem Post" qəzetində dərc olunan məqalədə bildirilir. Qeyd olunur ki, söhbət adi görüşdən getmir. Nəticə həm İsrailin Qəzzadakı qətliamlarının gedişatına, həm də Netanyahunun hakimiyyətinin gələcəyinə ciddi təsir göstərəcək. Qeyd edək BMT srailin Qəzzadakı qətliamlarının soyqırım olduğunu bəyan edib. ABŞ-nin təqdim etdiyi planı qəbul etmək Netanyahunun daxildəki sağçı-koalisiya tərəfdaşlarını qarşısına almaq və hökumətin dağılması riskini artırır. Əksinə, planı rədd etmək isə İsraili daha da təcrid vəziyyətinə salacaq və Vaşinqtonla münasibətlərin kəskinləşməsinə yol aça bilər. Məlumata görə, Netanyahu görüşdə Ağ Evdən əlavə vaxt istəməyi planlaşdırır. O, plan üzərində "düzəlişlər" və "təkmilləşdirmələr" aparılmasına ümid edir. Lakin "Jerusalem Post" yazır ki, Tramp administrasiyası artıq daha çox gecikməni qəbul etməyəcək.

İsrail beynəlxalq müstəvidə artan diplomatik təcridlə üz-üzədir. Qəzzada törədilən soyqırımın davam etməsi, humanitar böhranın dərinləşməsi və ABŞ-ın təklif etdiyi planın ətrafında yaranan siyasi böhran Netanyahunun mövqelərini zəiflədib. Ekspertlərə görə, qarşıdakı görüşün nəticələri təkcə Qəzzdakı vəziyyəti deyil, eyni zamanda Netanyahunun hökumətinin davamlılığını və onun şəxsi siyasi taleyini də müəyyənləşdirəcək.






Vaxt: 18.08.2025 13:10:32 Nömrə: 04BM639
Stansiya: M-1 129 km, Şabran rayonu Mollakamallı kəndi, Bakı istiqaməti
Qayda pozuntusunun növü: Çəki
Çəki: 34710 kq (Limit: 32000 kq)

# Sürücülərə qarşı “elektron tərəzi tələsi”

## Daha bir sürücü qanunsuz olaraq cərimə yazılmasına etiraz edir

**“Hürriyyət” qəzetində Qaradağ rayonu, Korgöz qəsəbə sakini Novruzov Ramiz Yavər oğlu və Bakı şəhəri, Xətai rayon sakini Ağamirzəli Natiq Cəmil oğlu tərəfindən redaksiyamıza daxil olan şikayət məktubunu dərc etmişdik. Şikayətçi Ramiz Novruzov qeyd edirdi ki, Ağstafa rayonu ərazisindəki elektron tərəziyə nəzarət edən şəxslər insanlara haqsız yerə cərimə yazır:**

“Mən, Novruzov Ramiz Yavər oğlu, yazaraq bildirirəm ki, Ağstafa rayonu ərazisində qurulan “AYNA”ya məxsus tərəzi sürücülərə artıq cərimə yazır.

Belə ki, tərəzi 40 ton yükü 42 ton 300 kq göstərir. Sonra da sürücüyə 600 manat cərimə gəlir. Hansı ki, mənə yazılan həmin 600 manatı ödəməyə məcbur oldum...

11.08.2025-ci il tarixində “Norum” sement zavodundan Gürcüstana qilinker yükü aparırdım. Yüküm 26 ton 60 kq idi. Bu yükə Dövlət Gömrük Komitəsi möhür vurub, əlimdə sənədlərim var. Qaradağ yol polisi postunun yanındakı elektron tərəzidən problemsiz keçmişəm. Heç bir qayda pozuntusunun olmadığını bildiriblər. Lakin Ağstafa ərazisindən keçəndə yükü 42 ton 320 kq hesablayıblar. Nəticədə 1080 manat cərimə olunmuşam. Yəni qanunsuz yerə cərimə yazılıb. Çörəkpulu üçün evdən çıxırıq, ziyanla qayıdırıq. Belə olmaz.



Vaxt: 28.08.2025 03:25:17 Nömrə: 04BM639
Stansiya: M-1 129 km, Şabran rayonu Mollakamallı kəndi, Bakı istiqaməti
Qayda pozuntusunun növü: Çəki
Çəki: 34770 kq (Limit: 32000 kq)

Mən, sizin qəzet vasitəsilə səlahiyyətli qurumlardan, hüquq-mühafizə orqanlarından xahiş edirəm, bu məsələdə mənə kömək edin. Ağstafa rayon ərazisindəki elektron tərəzi düzgün çəkmir. Məcbur qalıb, aparıb 1080 manat ödənişi də etmişəm. Amma, xahiş edirəm, bu qanunsuzluğa bir çarə qılın”.

Natiq Ağamirzəli də də bildirirdi ki, qeyri-qanuni yazılan cərimələri ödəməkdən artıq təngə gəlib:

“Mən, Ağamirzəli Natiq Cəmil oğlu, yazaraq şikayətimi işıqlandırmağınızı xahiş edirəm. Bildirmək istəyirəm ki, işlədiyim vaxtdan bu günə qədər qeyri-qanuni yazılmış 7 000 min manat cərimə ödəmişəm. İki gün əvvəl isə yenə 1200 manat cərimə yazıblar.

Ölkədə olan elektron tərəzilər tək mənə aid maşınların yükünü səhv çəkmir. Bundan şikayət edənlərin sayı heç də az deyil. Hər bir sahibkara 7 000, 10 000 manat civarında cərimələr yazılıb. Maşınımın yük tutumu 40 ton olduğu halda, tərəzi 43 ton göstərir. Halbuki yanlışdır.

Elektron tərəzilər ölçü götürür və icraat düzgün şəkildə həyata keçirilmədən, birbaşa sistemə daxil edilir. Bu da biz sahibkarlara qarşı haqsızlıqdır. Problem odur ki, əgər yüküm artıqdırsa, niyə yol polisi məni saxlamır, niyə artıq yükü boşaltmaq üçün istiqamətləndirmir? Niyə hərəkətə icazə verilir? Çünki, bilirlər ki, artıq yük yoxdur, elektron tərəzi səhv göstərir. Əgər saxlasalar, tənzimləmə prosesi zamanı bu səhv üzə çıxacaq”.

Qeyd edək ki, daha bir vətəndaş - Allahverdiyev Əli Valeh oğlu - “Hürriyyət”ə müraciət edərək bildirir ki,



Ölçmə vasitəsi: Instrument/Device — Elektron avtomobil tərəzisi / Electronic truck scale
İstehsalçı: Manufacturer — N/A
Tipi:

4
TƏRƏZİ QƏBZİ

| | | | |
|---|---|---|---|
| Çek №: 49204 | Giriş: 18.08.2025 11:41:58 Çıxış: 18.08.2025 11:43:29 | | |
| | Qeydiyyat nişanı: 04bm639 | | |
| Şirkət: Elmәddin | | Nəqliyyat növü: Kamaz | |
| Hardan-Hara: - | | Sürücü: | |
| Brutto, kg | Tara, kg | Netto, kg | Yükün adı |
| 31740 | 14140 | 17600 | Şeben 5/15 |

Operator : Administrator

Möhür: Azərbaycan Respublikası "YÜKSƏK TİCARƏT" MMC — SƏNƏDLƏR ÜÇÜN

Möhür — Nəşr tarixi / Publication date — Kalibrləməni həyata keçirən / Calibrated by — Təsdiqləyən / Approved by

AYNA-ya məxsus eletron tərəzilər işləmir: “Daha doğrusu, düzgün şəkildə işləmir, ancaq biz sürücüləri cərimələmək üçün quraşdırılıb. Burada isə sürücünün nə dediyinin, avtomobilin kütləsinin nə qədər olmağının bir önəmi yoxdur. Bunu 2 nümunə ilə göstərmək istəyirəm:

1. 18.08.2025-ci il tarixində idarə etdiyim KamAZ 6520 markalı, 04-BM-639 qeydiyyat nişanlı avtomobil Quba rayonun Zərdabi kəndi ərazisində, “Qartal” olaraq adlandırılan ərazidə yerləşən “Yüksək Ticarət” MMC-yə məxsus olan Qum-Çınqıl karxanasında şeben ilə doldurulmuşdur. Bu zaman avtomobilin yüklə birlikdə ümumi kütləsi 31 ton 740 kq olmuşdur (karxanadan aldığım 49204 nömrəli qəbzi əlavə edirəm).

Lakin, AYNA-ya məxsus Şabran rayonu ərazisində yerləşən elektron tərəzidən keçərkən avtomobilin kütləsinin 34 ton 710 kq olduğu iddiası ilə EQ 30039503 nömrəli protokol tərtib edilmiş (protokola əlavə edilmiş sənədi əlavə edirəm) və 1200 amant məbləğində cərimə olunmuşam.

2. 28.08.2025-ci il tarixində idarə etdiyim yenə eyni avtomobil Quba rayonunda yerləşən “Yüksək Ticarət” MMC-yə məxsus olan eyni karxanada şeben ilə doldurulmuşdur. Bu zaman isə avtomobilin yüklə birlikdə ümumi kütləsi 31 ton 550 kq olmuşdur (karxanadan aldığım 50037 nömrəli qəbzi əlavə edirəm).

Lakin, AYNA-ya məxsus, Şabran rayonu ərazisində yerləşən elektron tərəzidən keçərkən avtomobilin kütləsinin 34 ton 770 kq olduğu iddiası ilə EQ 30246081 nömrəli protokol tərtib edilmiş (protokola əlavə edilmiş sənədi əlavə edirəm) və 1200 amant məbləğində cərimə olunmuşam.

Yükün yükləndiyi karxanadakı elektron tərəzi sertifikatlaşdırılmış tərəzidir (sertifikatı əlavə edirəm)”.

Şikayətçilər əlavə edir ki, İnzibati Xətalar Məcəlləsinin 127-ci maddəsinin müvafiq bəndlərinin heç birinə uyğun hərəkət etmirlər. Yəni maşınların hərəkəti İnzibati Xətalar Məcəlləsinin qoyduğu qayda-qanunlarla yox, AYNA ilə Yol Polisi əməkdaşlarının “yazılmamış qanunları” ilə idarə olunur.



... KamAZ 6520 YÜK markalı, 04-BM-639 dövlət qeydiy...

4
TƏRƏZİ QƏBZİ

| | | | |
|---|---|---|---|
| Çek №: 50037 | Giriş: 28.08.2025 1:42:32 Çıxış: 28.08.2025 1:46:38 | | |
| | Qeydiyyat nişanı: 04bm639 | | |
| Şirkət: Elmәddin | | Nəqliyyat növü: Kamaz | |
| Hardan-Hara: - | | Sürücü: | |
| Brutto, kg | Tara, kg | Netto, kg | Yükün adı |
| 31550 | 14140 | 17410 | Şeben 5/15 |

Operator : Administrator

Möhür: Azərbaycan Respublikası "YÜKSƏK TİCARƏT" MMC — SƏNƏDLƏR ÜÇÜN

...yükün təhvil verildiyi zaman elektron tərəzi vasitəsi ilə avtomobilin yüklə birlikdə kütləsinin 31 ton 500 kq olduğu müəyyən olunmuşdur (qoşma 6).

Maddə 127-1. İriqabaritli və ya ağırçəkili nəqliyyat vasitələrinin icazə verilən çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərini aşmaqla ümumi istifadədə olan avtomobil yollarında idarə edilməsi ilə əlaqədar inzibati xəta hadisəsi elektron tərəzilər və foto və ya videoqeydiyyat funksiyalarına malik texniki vasitələrin köməyi ilə aşkar edildikdə icraatın aparılması qaydası;

127-1.1. Bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsi ilə əlaqədar inzibati tənbeh vermə haqqında elektron qərar hərəkətdə olan nəqliyyat vasitəsinin çəki və kütlə parametrlərini ölçən və yol örtüyünün altında yerləşən xüsusi texniki vasitələrin (elektron tərəzilərin) məlumatları əsasında bu Məcəllənin 122.1-ci maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilir. Bütün elektron tərəzilər müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə inteqrasiya edilməlidir.

127-1.2. İnzibati tənbeh vermə haqqında elektron qərar çəki və yüklə birlikdə oxa düşən kütlə parametrlərinə dair tələblərin pozulması ilə əlaqədar xüsusi texniki vasitələrin məlumatları əlavə edilməklə elektron qaydada dərhal müvafiq icra hakimiyyəti orqanının və ya müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun ən yaxın nəzarət məntəqəsinə göndərilir.

127-1.3. Bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədildiyi nəqliyyat vasitəsi müvafiq icra hakimiyyəti orqanının əməkdaşı tərəfindən nəzarət məntəqəsində saxlanılır və inzibati tənbeh vermə haqqında elektron qərarın və xüsusi texniki vasitələrin məlumatlarının kağız daşıyıcıda surətləri nəqliyyat vasitəsini idarə edən şəxsə təqdim olunur.

127-1.4. Saxlanılmış nəqliyyat vasitəsinin çəki və kütlə parametrləri nəzarət məntəqəsində quraşdırılmış xüsusi texniki vasitələrlə saxlanılmış nəqliyyat vasitəsini idarə edən şəxsin iştirakı ilə müvafiq icra hakimiyyəti orqanının və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun əməkdaşları tərəfindən ölçülür və məlumatlar real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sisteminə ötürülür.

127-1.5. Hərəkətin davam etdirilməsi üçün yükgöndərən (daşıyıcı) tərəfindən nəqliyyat vasitəsindən normadan artıq yükün boşaldılması və yükün digər nəqliyyat vasitəsilə daşınması təmin edilməlidir.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Əksər saytlar Əhmədzadənin həbsi haqda niyə yazmadı?

## Bəzi media orqanlarının fasiləsiz susqunluğu haqda şok səbəblər üzə çıxdı




**“Caspian Logistics Solutions” şirkətinin rəhbəri, SOCAR-ın keçmiş topmeneceri Adnan Əhmədzadənin həbsi bir sıra gizli məqamları ortaya çıxardı. Əlbəttə, biz onun həbsinin səbəbləri haqda mətbuatda səslənən çoxsaylı versiyları yenidən gündəmə gətirmək fikrindən uzağıq. Lakin görünən odur ki, A.Əhmədzadənin həbsi təkcə iqtisadi səbəblərlə əlaqədar deyil. Hətta belə də demək mümkündür ki, ortada siyasi çalarların olduğu da istisna deyil.**

Dəyərli oxucularımız haqlı olaraq düşünə bilər ki, Adnan Əhmədzadə ticarət adamıdır, onun siyasətlə nə işi ola bilər?! Lakin son günlər ortaya çıxan bəzi həqiqətlər onun heç də sadəcə iş adamı olduğunu deməyə əsas vermir...

Öncə ondan başlayaq ki, Adnan Əhmədzadə Azərbaycanda ən böyük media şəbəkəsinin - “Global Media Group”un qeyri-rəsmi sahibidir. Bu şəbəkəyə çox sayda nüfuzlu media subyektləri daxildir. Hətta 2018-ci ildən Türkiyədə fəaliyyət göstərən “Haber Global” telekanalı da “Global Media Group”a daxildir. Ümumilikdə isə, Azərbaycanın ən böyük informasiya agentliklərindən olan “Report” İA, 2018-ci ildən aparıcı xəbər kanalı kimi fəaliyyət göstərən “Baku TV”, 2004-cü il yanvarın 5-də fəaliyyətə başlayan “BAKU.WS” xəbər saytı, 2013-cü ildən fəaliyyət göstərən “Oxu.Az” xəbər saytı, 2018-ci ildə fəaliyyətə başlayan rusdilli “Media.az” saytı, iki dildə nəşr olunan (Azərbaycan türkcəsi və rusca) “Kaspi” qəzeti, bir neçə dildə işıq üzü görən “Caliber.az” saytı, eləcə də xaricdə və ölkə daxilində fəaliyyət göstərən çox sayda şirkət rəsmi olaraq “Global Media Group”a daxildir.

Amma məsələnin maraqlı tərəfi odur ki, neft satışı ilə məşğul olan Adnan Əhmədzadə “Global Media Group”un tərkibindəki media qurumları ilə yanaşı, kənardakı onlarla saytı da maliyyələşdirirmiş. Hansı ki, onun həbsindən sonra bu fakt tam çılpaqlığı ilə üzə çıxdı. Yəni, apardığımız araşdırma zamanı məlum oldu ki, “Global Media Group”a daxil olan media subyektləri ilə yanaşı, ölkədə fəaliyyət göstərən onlarla sayt Adnan



Əhmədzadənin Bakıda həbs olunması haqda bir cümlə belə, yazmayıblar. Hətta onlar iş adamının həbsi ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən açıqlanan bir neçə cümlənlik rəsmi informasiyanı da dərc etməyə ehtiyac görməyiblər. Təbii ki, bu da iş adamının təkcə iqtisadi maxinasiyalar səbəbindən həbs olunmadığını, ortada siyasi səbəblərin də olduğu ehtimalını irəli sürməyə imkan verir.

Bəs, “Global Media Group”dan kənarda A.Əhmədzadəyə xidmət edən saytlar hansılardır?

“Hürriyyət”in apardığı araşdırmaya əsasən deyə bilərik ki, “Global Media Group”a daxil olan “Haber Global” telekanalı, “Report” İA, “Baku TV”, “BAKU.WS”, “Oxu.Az”, “Media.az”, “Kaspi”, “Caliber.az” media subyektlərindən əlavə, “Yenisabah.az”, “Yenicag.az”, “Olke.az”, “Sfera.az”, “Demokrat.az”, “Qaynar.info”, “Valyuta.az”, “Azxeber.az” və s. saytlar da A.Əhmədzadənin həbsi haqda bir cümlə yazmayıblar. Ölkənin aparıcı informasiya agentliklərindən olan APA və “Bizim.-media” saytı isə yalnız DTX-nın açıqladığı rəsmi məlumatı dərc etməklə öz işlərini bitmiş hesab ediblər.

Əlbəttə, nəzərə alsaq ki, “Adnan Əhmədzadə işi” təkcə Azərbaycanda deyil, bir sıra xarici media orqanlarında da gündəmin əsas mövzularındadır, deməli, nüfuzlu saytların bu haqda heç bir xəbər verməməsi səbəbsiz deyil. Buradan belə qənaətə gəlmək olar ki, onlar ya birbaşa A.Əhmədzadə tərəfindən maliyyələşdiriliblər, ya da bu haqda məlumat verməməklə bağlı eyni mənbədən tapşırıq alıblar. Deməli, Azərbaycanda hələ də Adnan Əhmədzadənin həbsinə dirəniş göstərən qüvvələr var və onlar ölkə mediasının önəmli hissəsini öz nəzarətləri altında saxlayırlar. Bütün bunlar isə A.Əhmədzadənin həbsinin təkcə iqtisadi səbəblərlə bağlı olmadığını deməyə əsas verir. Hər halda, bu, bizim gəldiyimiz qənaətdir. İnanırıq ki, aidiyyəti qurumlar, xüsusilə də Dövlət Təhlükəsizliyi Xidməti çox yaxında bu məsələyə aydınlıq gətirəcək.

**“Hürriyyət”**

**P.S. Yazıda adları qeyd olunan media orqanlarının hər birinin mövqeyini dərc etməyə hazırıq.**

# Kağız üzərində qalan islahat

## Rəqabət Məcəlləsinin cəmiyyət və iqtisadiyyat üçün dəyəri yoxdur...



Azərbaycan iqtisadi həyatında 17 illik maneədən və müzakirələrdən sonra nəhayət qəbul edilən Rəqabət Məcəlləsi böyük ümidlər doğurmuşdu. İctimaiyyət gözləyirdi ki, bu sənəd bazarda inhisarçılığın qarşısını alacaq, azad rəqabəti təmin edəcək və nəticədə həm sahibkarların, həm də istehlakçıların maraqlarını qoruyacaq. Lakin məcəllənin qəbulundan artıq 1 il 3 aya yaxın vaxt keçməsinə baxmayaraq, real həyatda ciddi dəyişiklik müşahidə olunmur.

Ən böyük problem odur ki, monopoliya hələ də davam edir. Qiymətlərin süni formalaşdırılması, bazarda müəyyən şirkətlərin üstünlüyü və rəqabəti məhdudlaşdıran amillər aradan qaldırılmayıb. Qanun qəbul edilsə də, onun icrasını təmin etməli olan qurum Prezident yanında Antiinhisar siyasəti və İstehlak Bazarına Nəzarət Palatasının fəaliyyəti yoxdur. Bu isə rəqabət mühitinin yalnız kağız üzərində mövcud olduğuna işarədir.

Digər tərəfdən, Antiinhisarın fəaliyyətsizliyi ictimai etimadı sarsıdır. Əgər məcəllə qəbul olunubsa, lakin onun mexanizmləri işləmir və real nəticələr vermirsə, bu, sadəcə formal bir addım kimi görünür. Bir müddət bundan əvvəl monopolistlərlə savaşa bilməsi üçün prezidentin qərarı ilə Antiinhisar İqtisadiyyat Nazirliyinin tərkibindən çıxarılaraq Prezident yanında ayrıca bir quruma çevrildi. Ancaq buda heç bir nəticə vermədi. Ümumiyyətlə bu qurumun varlığı ilə yoxluğu arasında heç bir fərq yoxdur.

Nəticə olaraq, Rəqabət Məcəlləsinin qəbulunu islahat kimi təqdim etmək mümkündür, amma praktik fayda olmadığı müddətdə onun cəmiyyət və iqtisadiyyat üçün dəyəri yoxdur. İctimaiyyətin gözləntisi isə aydındır: qanun kağız üzərində yox, bazarda işləməlidir.

**İlkin MƏMMƏDKƏRİMOV**

# Məhkumdan müayinə pulu da aldılar, amma...

## Eldar Zeynalovun yaxını Tibb Baş İdarəsindən şikayətçidir




**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin tabeliyində olan Penitensiar Xidmətdən şikayətlərin sayı son vaxtlar artıb.**

Belə ki, redaksiyamıza daha bir məhkum yaxını tərəfindən şikayət daxil olub. Müəyyən səbəblərdən adının açıqlanmasını istəməyən şikayətçi deyir ki, Penitensiar Xidmətin Tibb Baş İdarəsində (Ədliyyə Nazirliyinin tabeçiliyinə verilib - red.) özbaşınalıq hökm sürür.

“Görünür, Penitensiar Xidmətin Tibb Baş İdarəsinə gücü çatmır”, - deyən şikayətçi məhkum yaxını Zeynalov Eldar Həsən oğluna qarşı biganəlik haqda məlumat verir:

“Lənkəran türməsindən məhkum Eldar Həsən oğlu Zeynalov artıq bir neçə aydır ki, həkimə müraciət etsə də, baxılmır. Baş-beyin travması olduğu üçün “MRT müayinəsi ödənişlədir”, - deyib pul alsalar da (hətta qəbz də verilib) iki aydan çoxdur ki, cavab yoxdur. Belə çıxır ki, məhkumların sağlamlığı heç kimə maraqlı deyil.

Tibb müəssisəsinin özbaşınalığı ayaq tutub yeriyir, Penitensiar Xidmət isə susur. Görəsən, Tibb Baş İdarəsinin baş həkimi hansı ”Həsənağa”nın qohumudur?”.

**Hurriyyet.az**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# "Yeni proqram Prezidentin bu mübarizəyə nə qədər önəm verdiyini göstərir"

## Millət vəkili Fazil Mustafa:

## "Biz daha çox narkomaniyanın müalicə istiqamətinə diqqət yetirməliyik"

**Sentyabrın 17-də Azərbaycan Prezidentinin sərəncamı ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cü illər üzrə Dövlət Proqramı qəbul olundu. Kimsəyə sirr deyil ki, başa vurduğumuz dönəmdə nəinki varlığını saxlayan, üstəlik yetərli qədər irəliləyən narkomaniya özünə cəmiyyətdə ciddi yer edib. Bəs, yeni proqramın qəbulu problemin həllinə nə dərəcədə təsir göstərəcək? Bu və ya digər suallara millət vəkili Fazil Mustafa ilə müsahibəmizdə cavab tapmağa çalışdıq.**

***- Fazil bəy, Prezidentin sərəncamı ilə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cü illər üzrə Dövlət Proqramı qəbul olundu. İlk olaraq bu proqramla bağlı fikrinizi bilmək istərdik...***

- Dövlət Proqramının qəbul olunması olduqca müsbət haldır və ölkə Prezidentinin narkomaniyaya qarşı mübarizəyə nə qədər önəm verdiyini göstərən əsas amillərdən biridir. Və 2025-2030-cu illərdə də bu mübarizənin hansı istiqamətdə gedəcəyi bütün parametrlərlə Dövlət Proqramında qeyd olunub. Amma burada əsas məsələ bu proqramın həyata keçirilməsində fədakarlıq edən insanların komissiyada yer almasıdır. Əgər bu fədakarlıq olmayacaqsa, sadəcə hansısa bir şəkildə bu məsələdə statik davranışlar sərgilənəcəksə, mübarizəni də effektiv bir şəkildə aparmaq mümkün olmayacaq.

Məsələn, bizdə "Futbolun İnkişaf Proqramı" var. Amma futbolun inkişafı üçün fədakarlıq olmadığına görə, Prezidentin bu niyyətinin normal şəkildə həyata keçirilməsi mümkün olmadı. Yəni biz birinci növbədə baxmalıyıq ki, bunu kim icra edəcək?!

Narkomaniya çox ciddi məsələdir və ölkənin də taleyində çox ciddi, önəmli rol oynayan, neqativlərin qabardığı müəyyən sahələrdən biridir. Ona görə də Prezident bu sahəyə xüsusi həssaslıq göstərir. Amma, söylədiyim kimi, bunu mübarizənin öncüllüyünü apara biləcək bütün qurumlarla səfərbərlik, əməkdaşlıq halında aparmaq mütləqdir. Eyni zamanda, bu prosesdə hansısa vəzifə funksiyasını yerinə yetirməyən qurumlara və şəxslərə qarşı da kompromissiz mübarizə aparan bir komissiya formalaşacaqmı, - əsas məsələ budur. Əgər bu, olarsa, məncə, bu proqramın həyata keçirilməsindən sonra biz artıq bu istiqamətdə konkret nəticələri də görə biləcəyik.

***- Sizcə, yeni Dövlət Proqramı narkotiklərə qarşı mübarizənin bütün sferalarını əhatə edə bildimi?***

- Adətən bu cür proqramda bütün komponentlər nəzərə alınır və əsas məsələ icra ilə bağlıdır. Mənim fikrimcə, biz burada daha çox narkomaniyanın müalicə istiqamətinə diqqət yetirməliyik. Bir də bu sahədə peşəkar kadrların hazırlanmasına önəm verməliyik. Paralel olaraq QHT-lərin, xüsusilə də peşəkar Qeyri-Hökumət Təkilatlarının stimullaşdırılmasına çalışmalıyıq. Təəssüf ki, bu istiqamətdə Qeyri-Hökumət Təşkilatlarının müəyyən dərəcədə həm qeydiyyatı, həm ixtisaslaşmış kadrlarla zəngin olması, həm də onlara ayrılan vəsaitin yetərli olmaması cəmiyyətdə bir səfərbərlik ruhunu yaratmağa imkan vermir. Biz bu istiqamətdə daha çox diqqət yönəltməliyik. Yoxsa, proqramda bütün məsələlər əksini tapır, kifayət qədər peşəkar hazırlanan proqramdır.

***- Dövlət Proqramında narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində əməliyyat-axtarış tədbirlərinin və profilaktik tədbirlərin gücləndirilməsi, qaçaqmalçılıq risklərinin azaldılmasına töhfə verilməsi də nəzərdə tutulur. Bu, belə deməyə əsas verirmi ki, indiyədək bu sahədə görülən tədbirlər yetərli olmayıb...***

- Əslində, Azərbaycanda narkomaniya ilə bağlı məsələ daxili problem olmaqdan daha çox, xarici problemdir. Başqa ölkələrdə Azərbaycanda narkotikin yayılması üzərində bir strateji proqram həyata keçirilir. Və buna qarşı da mübarizədə sərhəd qoşunlarımız, dövlət təhlükəsizlik xidmətimiz, hüquqmühafizə orqanları, DİN çox ciddi fəaliyyət göstərirlər. Amma miqyas və coğrafiya o qədər genişdir ki, bunun qarşısını almaqda xeyli çətinlik var. Ona görə də cəmiyyətin bu prosesə necə səfərbər olması onun müsbət nəticəsini doğura bilər. Məncə, təbii ki, bu sahədə görülən tədbirlər yetərli sayıla bilməz. Çünki nə qədər tədbir görürsən gör, məktəb şagirdləri arasında bunun geniş yayılması, müəyyən dərəcədə əhalinin fərqli kateqoriyasından olan insanlar arasında yayılması və həbs olunanların içində narkotiklə əlaqəli insanların sayının çox olması, kuryer qismində qadın cinsindən olan insanların daha çox istifadə olunması, ailə həyatının, xüsusən də boşanmaların əsas səbəblərindən birinin - tərəflərdən birinin, ya ikisinin narkotik asılısı olması çox böyük narahatçılıqlar doğurur. Tütün çəkmə ilə bağlı təbliğat, maarifləndirmə işi çox zəif aparılır. Bu da məktəb illərindən tütündən, tütünçəkmədən başlayan narkotikə transfer olunan bir prosesi özüylə gətirir.

Narkomaniyanın müalicəsi ilə bağlı özəl qurumlar var. Bu qurumların müəyyən dərəcədə dəstəklənməsi və təbii ki, onlar üzərində optimal nəzarətin də keçirilməsinə ehtiyac var. Bunlar birlikdə aparılası, yürüdüləsi məsələlərdir. Ona görə, tədbirlər yetərli olsaydı, belə bir proqramı davam etməyə nə ehtiyac qalardı?!..

***- Proqramda bir sıra normativ hüquqi aktlardan söhbət gedir və qeyd olunur ki, zəruri instutisional tədbirlər narkotikin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə töhfə verəcək. Sizcə, burada hansı yenilikləri etmək olar? Məsələn, ölkədaxili narkotik satışına zərbə vurmaqda, narkoşəbəkəni çökdürməkdə yenilikləri necə görürsünüz?***

- Açığı, yeniliklər məsələsini burada - bir müsahibədə söyləməyim doğru olmaz. Mən bu sahənin mütəxəssisi deyiləm. Mən sadəcə öz müşahidələrimi söyləyirəm. Cəmiyyətdə bu prosesin nə qədər yayğınlaşdığının narahatçılığını daşıyan bir vətəndaş kimi danışıram. Ona görə də konkret toplantılar olarsa, dəvətlər olarsa, prosesə ayrı-ayrı millət vəkillərinin cəlb olunması olarsa, onda bu məsələyə münasibət bildirmək olar. Amma, mən bildiyimi qədər, bu komissiyanın toplantılarına, yaxud da onun müzakirələrinə Milli Məclis, qanunverici orqan xüsusi dəvət olunmayıb. Halbuki bu praktikanı canlandırmaq lazımdır və qanunverici orqanın da bu prosedə yer alması önəmli olardı. Onda təklifləri hazırlayıb vermək mümkündür. Təklifi elə-belə havaya, mətbuata və yaxud da bütövlükdə cəmiyyətə verməyin nə anlamı var?! Qərar qəbul edən mexanizm o təklifləri əldə etməlidir və yaxud da ona münasibət bildirməlidir.

Ona görə də biz bu mövzuda dəfələrlə təkliflərimizi vermişik. Milli Məclisdə mən bununla bağlı xeyli təkliflər vermişəm. Hətta bu sahədə çalışan Qeyri-Hökumət Təşkilatları ilə də sıx təmas halındayam. Onların da mənə çox sayda müraciətləri, təklifləri, təşəbbüsləri olur. Mən dərhal onları diqqətdə saxlayaraq, gündəmə gətirməyə çalışıram.

***- Qeyd etdiyimiz kimi, ötən 5 il ərzində Azərbaycanda narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə ciddi nəticə vermədi. Belə ki, ölkədə istər narkotik ticarətinin genişləndiyi, istər də narkomanların sayının artdığı rəsmi rəqəmlərlə təsdiq olunur. Növbəti 5 ildə arzuolunan nəticənin əldə olunacağına inanırsınız?***

- Yenə də söyləyirəm, bu sadəcə fədakarlıq tələb edən sahədir. Sadəcə vəzifəyə görə narkomaniyaya qarşı mübarizə aparılmaz. Bir vətəndaş duyğusu, həssaslığı ilə cəmiyyətimizin, dövlətimizin gələcəyinə ürək yangısı ilə bu prosesə girmək lazımdır. Çünki bu hamının evində, qonşusunda, yaxınında baş verə biləcək neqativ haldır və böyük bir bəladır, xəstəlikdir. Ona görə də burada fədakarlıq olmasa statsusla bu məsələnin üzərində kiminsə hansısa böyük bir işlər görəcəyi inandırıcı görünmür. İndiyə qədər də bu sınaqdan çıxmadı. Əksinə, mənim fikrimcə, bu qurumun başına xüsusi səlahiyyətli, xüsusi statuslu və hətta portfelsiz nazir statuslu, müstəqil, birbaşa Prezidentə tabe olan şəxs gətirilməlidir. Və bu mövzuda bütün qurumların onun fəaliyyətini dəstəkləməsini təmin etmək lazımdır. Bu olsa, onda elə bil nələrisə irəli aparmaq mümkün olacaq. Olmasa, sadəcə görüşlər, tədbirlər, müəyyən dərəcədə televiziyada xəbərdarlıq, başqa formal addımlar atılmaqla yetiniləcək. Bu, çox ciddi bir bəladır və buna qarşı da qəhrəmancasına, təkcə, fədakarcasına yox, prinsipial mübarizə aparmağa zərurət var. Ümid edək ki, hər halda bu işin tapşırıldığı insanlar bu məsuliyyəti dərk edib, böyük bir bəlanın qarşısını almağa çalışacaqlar.



"Bu qurumun başına xüsusi səlahiyyətli, xüsusi statuslu və hətta portfelsiz nazir statuslu, müstəqil, birbaşa Prezidentə tabe olan şəxs gətirilməlidir..."

**"Hürriyyət"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# “Rusiya çox sürətlə SSRİ-nin taleyini yaşaya bilər”



## Ramiz Yunus: “Ərdoğan ABŞ-də rəqiblərinə ustad dərsi verdi”

ABŞ-də yaşayan tanınmış azərbaycanlı siyasi təhlilçi, Xəzər Universitetinin professoru Ramiz Yunus dünyada və regionda cərəyan edən hadisələrlə bağlı “AzPolitika”nın suallarını cavablandırıb. Müsahibəni oxucularımıza təqdim edirik:

***- Ramiz bəy, BMT Baş Assambleyasının toplantısında Rusiya-Ukrayna, İsrail-Fələstin münaqişəsi əsas gündəm mövzusu olmadı. Tramp isə daha çox BMT-nin özünü hədəfə aldı. Sizcə, beynəlxalq münasibətlər sistemindəki qeyri-müəyyənlik dünyanı hara aparır, qarşıda nələr gözlənilir?***

- Burada qeyd etmək vacibdir ki, BMT indiki formada İkinci Dünya müharibəsindən dərhal sonra həmin müharibədə qalib gəlmiş dövlətlər tərəfindən yaradılıb. Eyni qaydada, Birinci Dünya müharibəsindən sonra da Millətlər Liqası qalib dövlətlər tərəfindən təsis edilmişdi. Hər iki halda qaliblər və məğlublar vardı. Qeyd edim ki, hər iki dünya müharibəsində məğlub tərəf Almaniya və onun müttəfiqləri olmuşdu. Həm Millətlər Liqası, həm də BMT o dövrdəki geosiyasi proseslər və siyasi konyuktura nəzərə alınaraq yeni müharibənin qarşısını almaq məqsədilə həm forma, həm də məzmun baxımından elə qurulmuşdu.

SSRİ-nin süqutundan sonra, yəni soyuq müharibədə qələbədən dərhal sonra, 1945-1991-ci illərdə mövcud olmuş dünya nizamı bir anda dağıldı. Təəssüf ki, yenisi yaradılmadı və nəticədə bu gün müşahidə etdiyimiz geosiyasi xaos meydana gəldi.

Hazırda ABŞ və Çin başda olmaqla bir neçə böyük siyasi mərkəz arasında, eyni zamanda müxtəlif ölkə və regionların yeni dünya nizamında öz yerini müəyyənləşdirmə uğrunda sərt mübarizə gedir.

Bu gün qaliblər və məğlublar yoxdur, eləcə də Üçüncü Dünya müharibəsi klassik mənada yoxdur. Amma onun başlama riski qalır, baxmayaraq ki, bu, mənim fikrimcə, az ehtimal olunur.

ABŞ və Çin bəşəriyyət üçün yeni qaydalar barədə fundamental razılığa gəlməyincə, Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdəki böhran və dünyanın digər “isti nöqtələri” davam edəcək. Onlar regional xarakter daşıyacaq, qlobal miqyas almayacaq. Bu səbəbdən də İkinci Dünya müharibəsindən sonra yaradılmış BMT və onun siyasi institutları real təsir imkanına malik olmayacaq. Dünyaya həm forma, həm də məzmun baxımından yeni qaydalar lazımdır.

***- Tramp-Zelenski görüşü bu dəfə fərqli atmosferdə keçdi, həm də ABŞ Prezidenti Rusiya rəhbərliyini hədəfə alaraq sərt tənqid etdi. Bunu Ağ Evin xarici siyasətində fundamental dəyişiklik hesab etmək olarmı? Bu istiqamətdə nə gözləyirsiniz?***

- Hər hansı siyasətçinin, o cümlədən Trampın bəyanatlarını düzgün qiymətləndirmək üçün onun və komandasının məqsədlərini anlamaq vacibdir. Prezident Tramp ABŞ-ın maraqlarını öz təsəvvürünə uyğun olaraq bütün beynəlxalq siyasi münasibətlər sistemini sıfırlamağa yönəlir.

Hazırda dünya qaydalarla idarə olunmur. Qanunun gücü deyil, gücün qanunu işləyir. Tramp da bu “güc hüququndan” öz siyasətini həyata keçirmək üçün istifadə edir - siyasi, iqtisadi və lazım gələrsə, hərbi gücdən.

Təəssüf ki, Rusiya ilə bağlı hələlik yalnız siyasi ritorika müşahidə olunur. Tramp bir gün tərifləyir, bir gün tənqid edir və bununla bütün dünyanı gah bu, gah da digər istiqamətə yönəldir. Əgər o, həqiqətən nəticə əldə etmək istəsə, “güc vasitəsilə sülh” tezisinə uyğun olaraq sözlərdən əmələ keçməli olacaq. Hesab edirəm ki, yaxın vaxtlarda bu anlayışa gələcək və Kremlin, şəxsən Putinin üzərinə real təzyiq alətlərini tətbiq etməyə məcbur olacaq.

***- Nyu-Yorkda Lavrov-Rubio görüşü də oldu. Hər iki tərəf müzakirələrin nəticəsini optimal hesab edir. Trampın dedikləri ilə bu “optimizm” arasında paradoks var. Yaxın günlərdə ABŞ-Rusiya dialoqu yenidən gündəmə gələ bilərmi?***

- Bu sadəcə diplomatik ritorikadır. Belə görüşlər lazımi mesajları ötürmək üçün əhəmiyyətlidir. Amma Rusiya-Ukrayna müharibəsi həll edilmədən ABŞ-Rusiya münasibətləri ayrıca formatda formalaşdırıla bilməz.

***- Ukrayna cəbhədə qismən uğurlar əldə edir, həm də Rusiyanın enerji obyektlərinə intensiv zərbələr endirilir. Bu gedişat münaqişənin həllini yaxınlaşdırır, yoxsa eskalasiya daha da böyüyə bilər?***

- Real danışıqların başlaması üçün tərəflərdən biri uduzmalı, digəri qazanmalıdır. Hazırda Rusiya-Ukrayna müharibəsində biz bunu görmürük. Yaxud tərəfləri atəşkəsə məcbur edib bütün cəbhə xətti boyunca mövqeləri dondurmaq lazımdır. Bu baş verməyincə müharibə davam edəcək.

***- Ramiz bəy, son vaxtlar Rusiya Avropa ölkələrinə qarşı müəyyən təxribatlara gedir. Burada məqsəd nədir, NATO-nun münaqişəyə cəlb edilməsi perspektivi varmı?***

- Rusiya NATO ölkələrini bütün sərhədlər boyunca yoxlayır və biz görürük ki, bu, hələlik informasiya və ideoloji baxımdan işləyir - həm Rusiya üçün, həm də NATO ölkələrinin daxilində. NATO isə uzun illərdir dərin böhran yaşayan bir hərbi-siyasi institutdur. Qayda belədir: gücə güclə cavab vermək lazımdır. Təəssüf ki, Kreml bu vəziyyətdən məharətlə istifadə edir. Rusiyaya real güc təzyiqi göstərilməyənədək belə təxribatların səviyyəsi yalnız artacaq.

***- Rusiya daxilində hansı proseslərin gedəcəyini proqnozlaşdırırsınız? Kritik hədd yaxınlaşırmı?***

- Müasir Rusiya 1979-cu ildə SSRİ-nin Əfqanıstana təcavüzündən sonra tutduğu yolla gedir. Xatırladım ki, o zaman ABŞ və müttəfiqləri Moskvanı “anakonda əməliyyatı” ilə sistemli şəkildə tədricən boğub təcrid etdilər. Bu, siyasi, informasiya, ideoloji, iqtisadi və hərbi-texniki istiqamətlərdə həyata keçirilirdi və nəticədə SSRİ siyasi böhran yaşadı, 1989-cu ildə Əfqanıstandan qoşunlarını çıxardı, 1991-ci ildə isə dağıldı.

Kreml rejiminin üstünlüyü ondadır ki, Qorbaçov rəhbərliyinin bir çox səhvlərini nəzərə aldı və buna görə 25 ilə yaxındır hakimiyyəti saxlaya bilir. Amma “janrın qanunu” var - əgər ABŞ və müttəfiqləri yeni “anakonda əməliyyatını” sistemli şəkildə təkrar etsələr, Rusiya da çox sürətlə SSRİ-nin taleyini yaşaya bilər. Təəssüf ki, hələlik belə sistemli yanaşma yoxdur və bundan Putin rejimi bacarıqla istifadə edir.

***- Türkiyə-ABŞ münasibətlərinin normallaşması üçün real addımlar atıldı, Ağ Evdə dövlətlərarası müqavilələr imzalandı. Daha əvvəl də razılaşmalar olmuşdu, amma proses ləng gedirdi. Nə gözləyirsiniz?***

- Prezident Ərdoğan bir daha həm ölkə daxilində, həm də xaricdə rəqiblərinə siyasi ustad dərsi verdi. Onun Tramp ilə görüşü və ABŞ Prezidentinin həm ona, həm də komandası üzvlərinə hörmətlə yanaşması iki ölkə münasibətlərində “demokratlar dövründəki soyuqluğun” başa çatdığını və yeni səhifənin açıldığını göstərdi.

Çox mühüm bəyanatlar verildi, konkret qərarlar qəbul olundu. Tramp ilin sonuna qədər F-35-lə bağlı sanksiyaları aradan qaldıracaq. Bundan başqa, Türkiyə ABŞ-la yeni “nüvə sazişi” bağladı və atom modulları sifariş etdi. ABŞ 20 il ərzində Türkiyəyə hər il 4 milyard kubmetrə yaxın mayeləşdirilmiş qaz ixrac edəcək. Təxminən, 43 milyard dollar dəyərində. Həmçinin Türkiyə ABŞ-dan 200 ədəd yeni “Boeing” aldı.

Tramp, həmçinin, İsrailin İordan çayının Qərb sahilini Fələstin Administrasiyasının iştirakı olmadan ilhaq etməsinə imkan verməyəcəyini vəd etdi.

Bütün bunlar göstərir ki, Tramp administrasiyası Türkiyəni NATO çərçivəsində bölgədə əsas hərbi-siyasi tərəfdaş kimi görür. Bu isə şübhəsiz ki, Türkiyənin Yaxın Şərqdə, Cənubi Qafqazda və ümumən müsəlman dünyasında rolunu və nüfuzunu artıracaq.

“Yaxın perspektivdə ABŞ-Azərbaycan münasibətləri həm forma, həm də məzmun baxımından daha konkret konturlara sahib olacaq”

***- Ramiz bəy, ABŞ-Azərbaycan münasibətlərini necə dəyərləndirirsiniz? Yaxın perspektivdə hansı addımlar atılacaq?***

- Xatırlayıram, ötən il ABŞ-da prezident seçkilərindən əvvəl Şuşada keçirilən beynəlxalq Media Forumunda prezident İlham Əliyev mənim sualıma cavab olaraq həm respublikaçılar, həm də demokratlarla bağlı tərcübəsini bölüşdü. Bu il ADA-da keçirilən beynəlxalq forumda prezidentlə yenidən görüşdükdə ona gözləntilərinin nə dərəcədə doğrulduğunu soruşdum. O, qətiyyətlə bildirdi ki, Vaşinqton-Bakı münasibətləri sürətlə pozitiv məcraya qədəm qoyub və bu, konkret nəticələr verir.

Bunun nəticəsi olaraq, 8 avqustda Ağ Evdə Azərbaycan-ABŞ-Ermənistan tarixi görüşü keçirildi. BMT Baş Assambleyası çərçivəsində Nyu-Yorkda ABŞ və Azərbaycan Prezidentlərinin şəxsi, səmimi ünsiyyəti və bunu dünya liderlərinin şahidlik etməsi çox şeydən xəbər verir.

Əminəm ki, yaxın perspektivdə ABŞ-Azərbaycan münasibətləri həm forma, həm də məzmun baxımından daha konkret konturlara sahib olacaq. Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsi, ərazi bütövlüyü və suverenliyinin bərpası Cənubi Qafqazda status-kvonu tamamilə dəyişdi və bu gün bölgənin lideri şübhəsiz ki, Azərbaycandır. Sevindiricidir ki, Vaşinqton bunu artıq yaxşı anlayır.

**E.Rüstəmli**

# Rüşvət vermədiyi üçün attestat ala bilmədi

## 308 saylı məktəbin rüşvətlə qovulan sabiq direktoru haqda şok ittihamlar



**Yasamal rayonu, 7-ci Alatava, bina 64, ev 33 sakini Kərimova Fərqanə Zakir qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, Yasamal rayonunda yerləşən 308 saylı məktəbin direktoru Təranə Məmmədovaya rüşvət vermədikləri üçün oğlu Kərimov Emil Cavid oğluna attestat verməyib:**

"Mən, Kərimova Fərqanə Zakir qızı, yazaraq xahiş edirəm ki, müraciətimi dərc edəsiniz.

Bildirim ki, artıq hara, kimə şikayət edcəyimi bilmirəm. Çünki rüşvətxor direktor Elm və Təhsil Nazirliyi tərəfindən qorunur.

Qeyd edim ki, oğlum Kərimov Emil Cavid oğlu Yasamal rayonunda yerləşən 308 saylı orta məktəbi bitirib. Buraxılış və blok imtahanında iştirak edib. Amma direktor Təranə Məmmədovanın istədiyi məbləği verə bilmədiyimiz üçün oğluma attestat verilmədi.

Ali məktəbə ixtisas seçiminə daxil olan zaman bildirildi ki, "siz ixtisas seçiminə buraxılmırsız, səbəb isə təhsil sənədinin təsdiq olunmamasıdır".

Direktor 10-11 ci siniflərdən hər il üçün 1000 manat pul alırdı. Bu, 2 ilə 2000 manat edir. Pul verməyən bütün şağırdlərin həyatını bu formada qaraltdı. Mənim övladım da təhsil hüququndan məhrum edildi.



DİM-2025
112
DÖVLƏT İMTAHAN MƏRKƏZİ
İMTAHANA BURAXILIŞ VƏRƏQƏSİ
Ali təhsil müəssisələrinə II və IIII ixtisas qrupları üzrə qəbul imtahanı
230700

İş nömrəsi: 230700 KƏRİMOV EMİL CAVİD
Şəxsiyyət vəsiqəsinin seriya, nömrəsi və FİN: AA6736492 60KKND2
İmtahanı verəcəyi dil: Azərbaycan
İxtisas qrupu: 2 İmtahan fənləri: riyaziyyat, coğrafiya, tarix
İmtahan keçirilən bina:
Yasamal rayonu 38 N-li tam orta məktəb D.Bünyadzadə küçəsi, 113
Zalın kodu: 427 Sıra: 2 Yer: 5
İmtahanın keçirildiyi ünvana saat 09:00 gec olmayaraq gəlmək lazımdır.
İmtahan 6 iyul 2025-ci il tarixi saat 10:00 başlayır.
Cavab kartını və cavab vərəqini təhvil alan nəzarətçinin imzası

Bu imtahanda əldə etdiyiniz nəticəni öyrənmək üçün 2307004 kodunu SMS-in mətninə daxil etməklə və ya soldakı QR kodu oxutmaqla Azercell, Bakcell, Nar, Naxtel nömrəsindən 7727 qısa nömrəsinə göndərin.

İMTAHANDA İŞTİRAK ETMƏK ÜÇÜN AŞAĞIDAKILARA ƏMƏL ETMƏLİSİNİZ:
1. İmtahan günü buraxılış vərəqənizdə göstərilən vaxtda imtahan verəcəyiniz binanın qarşısına gəlin (imtahan binası, imtahanın tarixi və vaxtı haqqında məlumat imtahana buraxılış vərəqəsində göstərilmişdir).
2. İmtahana aşağıdakı sənədləri gətirin:
- şəxsiyyəti təsdiq edən sənədi (Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər pasportlarını və ya icazə vəsiqələrini, vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədləri və ya icazə vəsiqələrini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər yaşayış vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri isə qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini);
Qeyd: Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan abituriyentlər, digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa şagirdin 3x4 sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).
- imtahana buraxılış vərəqəsi.
3. Özünüzlə qara və ya tünd göy rəngdə yazan, mürəkkəb axıtmayan diyircəkli qələm və (və ya) HB sərtliyində sadə karandaş gətirin. Qələmyonan, pozan, qol saatı da gətirməyi unutmayın.
4. Göstərilən sənədləri imtahan binasının giriş qapısında buraxılış rejimini həyata keçirən mühafizə əməkdaşlarına təqdim edib yoxlamadan keçdikdən sonra imtahana buraxılış vərəqənizdə göstərilmiş müvafiq kodlu zala gedin.
5. Abituriyent aşağıdakı hallarda imtahana buraxılmır:
- tələb olunan sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda;
- saxta sənəd təqdim etdikdə;
- imtahan binasına imtahanın başlanmasına 15 dəqiqə qalmışdan gec gəldikdə;
- imtahan binasına imtahana gətirilməsi qadağan edilmiş əşyalarla daxil olmağa cəhd etdikdə.

ABİTURİYENTƏ QADAĞANDIR:
- saxta sənəd təqdim etmək;
- imtahana öz yerinə başqasını göndərmək;
- imtahan binasına mobil telefon, ağıllı saat və digər rabitə vasitələri, kalkulyator və digər elektron cihazlar, konspekt, lüğət, cədvəl, məlumat kitabçası, çanta, xarici yaddaş qurğuları və başqa yardımçı vasitələr gətirmək və ya onlardan istifadə etmək;
DİQQƏT!
o Abituriyentin imtahan binasına qadağan edilmiş vasitə, vəsait və ya əşya keçirdiyi müəyyənləşdirilərsə bu barədə imtahan rəhbəri tərəfindən akt tərtib edilir və bu vasitə, vəsait və ya əşyalar araşdırma aparmaq üçün Dövlət İmtahan Mərkəzinə təhvil verilir.
o Texniki vasitələrin informasiya ötürücülük xüsusiyyətini müəyyənləşdirmək mümkün olmadıqda bu vasitələrin də imtahan binasına buraxılmasına icazə verilmir.
- yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu növ əşyalarla imtahan binasına girmək, özü ilə yemək, içmək (şəffaf plastik qabda qazsız içməli su istisna olmaqla), tütün məmulatı gətirmək;
- sual kitabçaları paylandıqdan sonra hər hansı bir səbəbə görə imtahan zalını tərk edib yenidən geri dönmək;
- nizam-intizam qaydalarını pozmaq;
- zalda yerini dəyişmək, gəzişmək, yerindən durmaq və bu kimi hallarla imtahanın gedişinə mane olmaq;
- başqasının cavab kartına, cavab vərəqinə, sual kitabçasına baxmaq və ya öz cavab kartına, cavab vərəqinə, sual kitabçasına başqasının baxması üçün şərait yaratmaq;
- "İmtahan başlandı!" elan olunan andan 2 saat müddət keçənədək və imtahanın son 15 dəqiqəsi ərzində, səbəbindən asılı olmayaraq, imtahan zalından çıxmaq;
- cavab kartını və cavab vərəqini nəzarətçiyə təhvil vermədən imtahan zalından çıxmaq.
DİQQƏT! Belə hallara yol verən abituriyentlər imtahandan xaric olunacaq və onların imtahan nəticələri ləğv olunacaqdır.
"YADDAŞ KİTABÇASI"nın tam mətnini əsas səhifədən yükləyib mütləq oxumalısınız!
Diqqət! Buraxılış vərəqəsini çap edərkən şəklin və məlumatların kağız üzərində aydın çap olmasından əmin olun, buraxılış vərəqəsini əzməyin. Barkod və QR kod hissəsi imtahan binalarında xüsusi proqram vasitəsilə yoxlanılacaq.



AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ
BAKI ŞƏHƏRİ üzrə TƏHSİL İDARƏSİ

AZ 1007, Bakı, Nəsimi r-nu,
Xan Şuşinski küç., 17
tel.: +994 12 599 12 22,
e-mail: office@baku.edu.gov.az

"26" 08 2025 il №3-29-59/2-K-3536-4/25

Bakı şəhəri, Yasamal rayonu, 7-ci Alatava mənzil 33 ünvanında yaşayan Fərqanə Kərimovaya

Sizin Bakı şəhəri 308 nömrəli tam orta məktəb barədə ünvanlanmış müraciətinizə aidiyyəti üzrə Bakı Şəhəri üzrə Təhsil İdarəsində baxılmışdır.

Bildiririk ki, araşdırılan məsələlərlə bağlı Bakı şəhəri 308 nömrəli tam orta məktəbin rəhbər və müəllimlərinin fəaliyyətində qanun pozuntusu halı müəyyən edilməmişdir.

Məlumat üçün qeyd edirik ki, vətəndaş müraciətlərinin daha operativ cavablandırılması məqsədilə www.portal.edu.az platformasında "Vətəndaş müraciətləri" xidməti istifadəyə verilmişdir. Növbəti müraciətlərinizi portalda qeydiyyatdan keçərək şəxsi kabinet vasitəsilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə, habelə tabe qurumlara elektron qaydada göndərməyiniz tövsiyə olunur.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini, Agentliyin Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Nərminə Hüseynova

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsi Elektron Sənədin Surəti

İmzalayan şəxs:
Nərminə Hüseynova
İdarə müdiri səlahiyyətlərini icra edən
Qeyd: "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcısı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.
Təhlükəsizlik kodu: 18FC13

Onu da deyim ki, bu məktəbdə summativlər də pul qarşılığında yazılır. Əgər pul verməsən, şagird dərsdə olduğu halda qayıb qoyulur.

Bütün şikayətlərə baxmayaraq, Elm və Təhsil Nazirliyi bu hadisəyə don geyindirməyə çalışır. Tək mənim uşağımın yox, bir neçə uşağın təhsil hüququ bu cür qanunsuzluqla əllərindən alınıb. Bir neçə dəfə müdafiə olunan direktorun növbəti səhvi zamanı səs yazısı ortaya çıxdı. Artıq onu qoruyan, bütün səhvlərini ört-basdır edən şəxs ona kömək edə bilmir. Belə ki, direktor işdən azad edilir. 15 gün qabaq "məktəbdə rüşvət halı yoxdur" deyən nazirlik bu dəfə onu rüşvətlə işdən çıxarır.

Uşaq məktəbə gedəndə "nəyə gəlmisən, pul verməsən qiymət yazılmayacaq" sözünü açıq-aşkar deyirdi. Oğlan uşaqlarını alçaldırdı. Hərbi xidmət üçün "Ağ kağız" istənildikdə belə, sənədə yazırdı ki, dərsdən sonra ofisiant işləyir. Oğlumla bərabər tanıdığm 4 şagirdə də attestat verməyiblər.

Kimsəyə sirr deyil ki, savadsızlıq, rüşvət, hegemonluq - hamısı belə direktorların işlədiyi məktəblərdə baş verir. Çıxdı getdi, yığdığını rahat-rahat yeyəcək. Olan mənim kimi valideynlərə olur. Çünki nazirlik biz valideynlərə inanmır. Yalnız sosial media üçün sübut verəndə tədbir görülür. Nazirlik tərəfindən göndərilən saxta məktubu da sizə göndərirəm".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# 3,7 milyonluq korrupsiya iddiası...

## Dənizkənarı Bulvar İdarəsinin sabiq sədri məhkəmədə ifadə verdi: "Guya, mən həmin pulları mənimsəmişəm..."

**Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sabiq sədri İlqar Mustafayev, köməkçisi Rəşad Bədəlov və "GİRASOL" MMC-nin direktoru Fuad Babayevin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**



Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Əsgərova-Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən İlqar Mustafayev ifadə verib.

O deyib ki, Hesablama Palatası aktı ona göstərmədən Bulvar İdarəsində 3,7 milyon manat mənimsəmə faktı taparaq Baş Prokurorluğa göndərib:

"Baş Prokurorluğun Korrupsiyaya qarşı Mübarizə İdarəsi isə cinayət işi başlayandan sonra 6 iş günü ərzində məni həbs edib".

İlqar Mustafayevin sözlərinə görə, Hesablama Palatasının aktında ona iradlar yazılıb:

"Köhnə bulvar ərazisində 4 restoranın çirkab suları 1,8 kvadrat nasosa quraşdırılıb və bununla da 2600 manat enerjiyə artıq pul xərclənib. Necə hesab edirsiniz, mən çirkab sularını bulvara axıdılmasına icazə verməli idim. Bulvar İdarəsində olan bir çox tikintilərə, iaşə obyektlərinin layihə-smeta sənədlərinin hazırlanmasına və ekspertizasına təxminən 91 min manat pul xərclənib ki, bu artıq xərcdir. Bildirirəm ki, bu xidməti göstərən Fövqəladə Hallar Nazirliyinin müəssisə və təşkilatlarıdır ki, onların da qiymətləri rəsmi müəyyən edilir, mən bunu necə dəyişib öz istədiyim rüsumu təyin edə bilərəm?".

Onun sözlərinə görə, 2016-cı ildən 2024-cü ilə qədər, yəni 8 il Bulvar İdarəsinə rəhbərlik edib:

"İttiham aktına əsasən, onun ilk 2 ilində 8 milyon, qalan altı ilində isə 4 milyon pul mənimsəmişəm. İttihamda göstərilib ki, Bulvar İdarəsində fəaliyyət göstərən bütün atraksionlardan, ticarət köşklərindən və obyektlərdən yığılan pulları işçilər və sahibkarlar İdarənin əməkdaşlarına, onlar da yuxarı əməkdaşlara və ierarxiya üzrə son nəticədə mənə veriblər, guya, mən isə həmin pulları mənimsəmişəm".

İlqar Mustafayev deyib ki, dəniz gəzintisi xidmətlərinin göstərilməsi ilə əlaqədar Şəfəq və Mirvari gəmilərində bilet satışından əldə edilmiş gəlirin mənimsənilməsinə dair Hesablama Palatası möhürsüz, imzasız elektron poçt vasitəsilə gələn Dövlət Dəniz və Liman Agentliyinin sədrinin müşavirinin göndərdiyi cədvələ əsaslanaraq hesablama aparıb:

"Hesablamaya görə, 2018-ci ildə 173 min nəfər, 2019-cu ildə 133 680 nəfər, 2020-ci ildə 13 min nəfər, 2021-ci ildə 62 min nəfər, 2022-ci ildə isə 48 min nəfər gəmilərdə sərnişin olub. İndi mənə maraqlıdır ki, 2020-ci ildən 2022-ci ilə qədər ölkədə pandemiya olub. Bulvar ərazisi rəsmi olaraq bağlı olub, pandemiyanın ən sərt vaxtları isə 2021-ci il olub, hansı ki, insanlar evdən bayıra sms icazə ilə çıxırdılar. Necə oldu ki, 2021-ci ildə 62 min nəfər gəmidə səyahətə çıxıb".

Təqsirləndirilən şəxs əlavə edib ki, ittiham aktında Maraşpark dondurma köşklərinin sahibi İsrafil Bascılın Dənizkənarı Bulvar İdarəsinə 2019-2023-cü illər ərzində 736 min 500 manat pul ödədiyi göstərilib:

"Müstəntiq də onun öz əl yazısı ilə yazdığı vərəqi sübut kimi götürüb və məni mənimsəmədə ittiham edib".

Daha sonra İlqar Mustafayevin vəkili İsmayıl Kəngərli məhkəməyə bir neçə vəsatət təqdim edib. O, vəsatətinin birində Dənizkənarı Bulvar İdarəsindən müəyyən hesabatların əldə edilməsini xahiş edib.

Məhkəmə vəsatəti təmin edib.

Növbəti proses oktyabrın 20-nə təyin olunub.

Qeyd edək ki, Dənizkənarı Bulvar İdarəsinin fəaliyyətinin yoxlanılması ilə bağlı Hesablama Palatasından daxil olan materiallar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb.

İbtidai istintaqla İlqar Mustafayev sözügedən idarədə işlədiyi dövrdə köməkçisi Rəşad Bədəlov, "GİRASOL" MMC-nin direktoru Fuad Babayev və qeyriləri ilə birgə rəsmi sənədlərə yalan məlumatlar daxil etməklə qurumun ərazisində yerləşən qeyri-yaşayış sahələrinin icarəyə verilməsi, ərazidə kommersiya obyektlərinin fəaliyyətinin təşkil edilməsi, gəmi gəzintiləri və digər bu kimi fəaliyyət sahələrindən əldə edilən 12 milyon manatdan artıq pulları mənimsəməkdə təqsirli biliniblər.

Bundan başqa, İlqar Mustafayevin 1 milyon 800 min manatdan artıq məbləğdə vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmaqda və cinayət yolu ilə əldə edilmiş pul vəsaitinin 10 milyon manatdan artıq hissəsini özü və qohumlarının adına əqdlər bağlamaq yolu ilə müvafiq əmlaklar alaraq leqallaşdırmaqda təqsirli bilinib.

İlqar Mustafayevə Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda törədilməklə mənimsəmə), 193-1.3.2 (xeyli miqdarda törədilməklə cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma), 213.3 (xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı), Fuad Babayev və Rəşad Bədəlova isə həmin Məcəllənin 179.4, 308.2 və 313-cü maddələri ilə ittiham elan edilib.

İlqar Mustafayev barəsində həbs, digərləri ilə bağlı isə polisin nəzarəti altına vermə növündə qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə müəyyən edilən ziyanın ödənilməsini təmin etmək məqsədilə dəyəri 11 milyon manatdan artıq əmlak üzərinə həbs qoyulub.

**Hazırladı: İ.SABİRQIZI**

# Hesab açdırmaq üçün banka getdi, külli miqdarda borca düşdü

## Yasamal sakini "Azərbaycan Beynəlxalq Bankı"nın əməkdaşı tərəfindən dələduzluğa məruz qaldığını bildirir

**Bakı şəhəri, Yasamal rayonu, M.Muxtarov küçəsi, ev 115, mənzil 4 ünvanında yaşayan Əhmədova Cavahir Cahangir qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Baş prokuror Kamram Əliyevə və Daxili İşlər naziri Vilayət Eyvazova müraciət edir:**




**"Cənab Kamran Əliyev!**
**Cənab Vilayət Eyvazov!**

Məlumat üçün bildirim ki, 2022-ci ilin dekabr ayında hesab açdırmaq məqsədi ilə "Azərbaycan Beynəlxalq Bankı"nın "Nəqliyyat filialı"na yaxınlaşdım. Növbəm çatanda bank işçisinin oturduğu masaya yaxınlaşıb, hesab açdırmaq istədiyimi bildirdim. Daha sonra mənə təklif etdi ki, banka məxsus "TAM kart" plastik kartını da əldə edim. Bankın əməkdaşı bildirdi ki, bu kartla rahat köçürmələr həyata keçirə bilərəm. Həmçinin dedi ki, mağazalardan alış-veriş edən zaman da istifadə edə bilərəm. Bonuslar yığılacaq, sonra onları da xərcləyə biləcəyimi dedi.

Düzü, kart sistemindən başım demək olar ki, çıxmır. Bu səbəbdən də razılaşdım. Yatsam yuxuma belə girməzdi ki, bank işçisi məni aldadaraq, pulumu mənimsəyər.

Bir-iki sənədə imza atdım və "TAM kart" adlı plastik kartını mənə təqdim etdi. Kartı götürsəm də heç vaxt istifadə edə bilmədim. Olduğu kimi də çantamın bir hissəsində qaldı.

Təxminən 2023-cü ilin iyul ayında "Azarbaycan Beynəlxalq Bankı"ndan mənə zəng vurub bildirdilər ki, "Nəqliyyat" filialından əldə etdiyim "TAM kart" kredit kartımda 2883 manat borcum var. Fikirləşdim ki, nəsə yanlışlıq var. Axı, özümə arxayınam. Üstəlik, ilk gün banka yaxınlaşan zaman da kredit kartı üçün getməmişəm. Hesab açdırmaq niyyəti ilə getmişdim. Bank işçisinin təklifi ilə debet kart əldə etmişəm. Amma kredit kartı götürməmişəm.

Səhəri gün ABB-nin "Nəqliyyat" filialına yaxınlaşdım. Bildirdilər ki, 13.12.2022-ci il tarixində kredit kartı götürmüsünüz.

Deməli, bank işçisi mənə kredit kartı olan sənədə də imza atdırıb. Lakin kartı mənə verməyib. Daha sonra başqa bir sənədə baxarkən gördüm ki, adımın qarşısında olan ikinci imza mənə aid deyil, oxşadılıb.

Əgər o kartdan istifadə etmişəmsə mənə aid sübut olmalıdır. Amma mənim əleyhimə heç bir sübut yoxdur.

Hazırda iş Nəsimi Rayon Polis İdarəsindədir, guya araşdırılır. Yəni 2022-ci ilin dekabr ayında olan dələduzluq halının araşdırılması hələ yekunlaşmayıb.

Bank rəhbərliyinə də, polis bölməsində də kredit kartını istifadə etmədiyimi, ümumiyyətlə heç vaxt görmədiyimi bildirdim. İşi həm bank, həm də polis araşdırır. Amma səhlənkarlıqla araşdırırlar. Belə ki, artıq 6 aydır mənim maaş kartımdan hər ay 300 manat pul çıxılır.

Bir sözlə, dələduzluğa uğramışam. Amma həm maddi, həm də mənəvi ziyana düşsəm də, yenə əziyyəti mən çəkirəm.

Heç vaxt ağlıma gəlməzdi ki, bank əməkdaşı tərəfindən başıma bu oyun açılar. Sübut olmadan, pulu çəkən mən olmadan necə mənim əmək haqqı kartımdan pul çəkilə bilər? Bu qədər özbaşınalıqdır?!

Belə çıxır ki, hüquq-mühafizə orqanları, xakerlər və bank bir yerdə çalışırlar.

**Cənab Kamran Əliyev!**
**Hörmətli Vilayət Eyvazov!**

Mən Sizdən xahiş edirəm, şikayətimi diqqətdə saxlayıb, dəqiq və düzgün araşdırılması üçün göstəriş verəsiniz. Mən hazırda küçələrdən dəmir parçası yığıb satıram ki, acından ölməyim. Bu qədər böyük haqsızlıqla qarşılaşmışam. Bir daha qeyd edim ki, pulu mənim çıxarmağımla bağlı heç bir sübut yoxdur".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adı çəkilən qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Bu avtobuslarda gediş haqqı artmayacaq

**Məlum olduğu kimi, 1 oktyabr 2025-ci il tarixindən ölkədə metro və avtobusda gediş haqqı məbləği 60 qəpik olaraq müəyyən edilib.**

Hurriyyet.az xəbər verir ki, yeni dəyişiklik metronu tam əhatə etsə də, avtobusların böyük bir qismi bu qiymət artımından kənarda qalacaq.

Belə ki, yeni tariflər Bakı şəhərinin inzibati ərazisi daxilində şəhərdaxili, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutlarında gedişhaqları yalnız nağdsız ödəniş alətləri vasitəsilə həyata keçirilən, habelə elektriklə və ya sıxılmış təbii qazla (CNG) işləyən avtobuslara şamil ediləcək.

Bu dəyişiklik ilkin mərhələdə paytaxtın sözügedən tələblərə cavab verən




mövcud marşrut şəbəkəsinin təxminən 30%-ni əhatə edəcək. Tələblərə cavab verməyən marşrutlarda isə qiymət dəyişikliyi tətbiq olunmayacaq.

Eyni zamanda tarif dəyişikliyi Bakı-Sumqayıt, Bakı-Abşeron, Sumqayıt-Abşeron arasında və digər şəhər və rayonlarda fəaliyyət göstərən müntəzəm avtobus marşrutlarında da tətbiq olunacaq. Bu dəyişiklik gediş haqları yalnız nağdsız ödəniş aləti vasitəsilə həyata keçirilən, elektrik, CNG və ya 1 yanvar 2025-ci ildən sonra istehsal edilən dizel yanacağı ilə işləyən avtobuslara şamil ediləcək.




# Maşın almaq istədi, dələduzluqla üzləşdi

## Sumqayıt sakini şikayətinə baxılmadığını iddia edir

**Sumqayıt şəhər sakini Poladov İlqar Qarakişi oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, ona qarşı dələduzluq olunsa da, aidiyyəti qurumlar şikayətinə baxmır:**

"Mən, Poladov İlqar Qarakişi oğlu, bildirirəm ki, "Turbo.az" saytında bəyəndiyim maşını almaq mənə baha başa gəldi.

Belə ki, oğlum və usta tanışımı götürüb həmin maşına baxmağa getdik. Maşını satan Hacıyev Abdulla Aydın oğlu idi. Beh verib, maşını saxlatdırdım.

Mənim yanımda maşının sahibi Abdullayev Fərhad Məhəmməd oğluna zəng vurub dedi ki, maşını Poladov İlqar Qarakişi oğluna satdım.

Maşını nə vaxt götürə biləcəyimi soruşduqda isə dedi ki, işləyirəm, ancaq onlayn qaydada etibarnamə verə bilərəm. Mən də razılaşdım.

Vəsiqəmi atdım ki, etibarnamə versin. Dedi ki, maşını texniki baxışdan keçirmək üçün pulum yoxdur. Kartına 250 manat göndərdim. Sonra zəng vurub bildirdi ki, bütün sənədlər hazırdır.

"Şamaxinka"da - yanacaq doldurma məntəqəsinin yanında görüşə çağırdı. Yaxınlıqda olan posta yaxınlaşıb, maşının cərimənin olub-olmadığını soruşdum...

Fərhada pulun qalan hissəsini, yəni 8 min 500 mantı Sumqayıt şəhərində verdim.

Oktyabr ayının 18-də maşını öz adıma keçirmək istəyərkən öyrəndim ki, qarşı tərəf etibarnaməni ləğv edib. Zəng vurdum, telefonu bağlı idi. Dəfələrlə zəngimi açmadıqda anladım ki, aldadılmışam.

Bir müddət sonra Fərhad telefon zəngini açdı. Və dedikı, 4500 manat pul verməlisən. Dərhal DİN-in qaynar xəttinə zəng vurub, bu haqda məlumat verdik. Lakin cinayət işi açılmadı. Mülki iş kimi qiymətləndirdilər.

Sumqayıt polisi də cinayət işinin olmadığını bildirdi.

Maşını mənə satan Hacıyev Abdulla Aydın oğlu isə hazırda tapılmır. Maraqlıdır, cinayət törədən şəxs, ölkədə olduğu halda, polisdən necə qaça bilər?!

Nəsimi Rayon Məhkəməsinə müraciət etdim. Maşın sahibi heç bir prosesə qatılmadı. 3-cü prosesdə Fərhadın vəkili gəldi. Hakimlə nə danışdı, nə danışmadı, məsələ elə həmin gündən də bağlı qalıb.

Əlimdə Fərhada aid səs yazıları var. Deyir ki, hara şikayət edirsən et, pul verib özümü qutaracam. Ziyana düşən də mən, haqqı tapdalanan da".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Teatrı yaşatmaq gərək

## Allahverdi Musayev: "Aktrisa sarıdan qıtlıq çəkirik"

Hər zaman olduğu kimi bu gün də teatrlarımızdan söhbət düşəndə öz yaradıcılıq potensial qüvvələri ilə diqqət mərkəzində olmağı bacaran Qazax Dövlət Dram Teatrı haqqında söhbət açmamaq mümkün deyil. Qeyd etmək lazımdır ki, Qazaxda ilk dəfə 1938-ci ildə kolxoz-sovxoz teatrı fəaliyyət göstərməklə sonradan 1943-cü ildən dram teatrına çevrilərək ona Səməd Vurğunun adı verilib. 1949-cu ilə qədər Dövlət Dram Teatrı kimi fəaliyyət göstərib. O dövrdə repertuarında əsasən Azərbaycan və dünya klassiklərinin pyesləri, həmçinin müasir ədəbiyyat nümunələri geniş yer alıb. 1960-cı ildən "Xalq teatrı" kimi mövcud olan bu mədəniyyət ocağı 1988-ci ildən "Dövlət Dram Teatrı" statusu ilə yenidən fəaliyyətə başlayıb. 1989-cu il iyun ayının 1-də Xalq şairi Bəxtiyar Vahabzadənin "Dar ağacı" tarixi faciəsi ilə ilk tamaşasını teatrsevərlərinə təqdim edib. Yaradıcı kollektiv repertuar zənginliyini qoruyub saxlamaq məqsədilə rus, alman, bolqar, türk, tacik dramaturqlarının əsərlərinə müraciət edib. Klassik və müasir Azərbaycan dramaturgiyası isə teatrın repertuarının əsasını təşkil edib.



"Müəyyən yaş hüduduna çatmış aktrisaları əvəz edə biləcək qüvvələrimiz demək olar ki, yox dərəcəsindədir"

**Bu gün də yaradıcı kollektiv teatr ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi və geniş tamaşaçı auditoriyasına təqdim edilməsi məqsədilə uğurla çalışır. Teatrın yaradıcılıq yoluna yenidən nəzər salmaq, repertuar planları eləcə də yeni uğurları haqqında tanış olmaq məqsədilə müsahibim teatrın direktoru vəzifəsini müvəqqəti icra edən Allahverdi Musayevdir.**

*(Əvvəli ötən sayımızda)*

***- Yeni mövsümdə hansı tamaşaları hazırlamaq nəzərdə tutulub?***

- Yeni mövsümdə repertuar planına uyğun olaraq teatrımızla müntəzəm əməkdaşlıq edən iki rejissoru yenidən dəvət etmişik. Onlardan biri Füzulu Dövlət Dram Teatrının baş rejissoru Mirzə Nicatdır. O, bizim teatrda məşhur türk dramaturqu Tuncer Cücenoğlunun "Uçqun" pyesini hazırlayacaq. DigəriSəməd Vurğun adına Akademik Dövlət Rus Dram Teatrının aktyoru Abdulla Soy isə Cəlil Məmmədquluzadənin "Ölülər" pyesinə quruluş verəcək. Ayrıca mən də Xalq şairi Nəriman Həsənzadənin "Zəfər yolu" kompizisiyasını hazırlayacağam. Repertuardan kənar isə Xəzər Gəncəli Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsi əsasında monotamaşa hazırlamaq niyyətindədir.

***- Dövlət sifarişi ilə hazırlanan tamaşalar varmı? Ümumiyyətlə Dövlət sifarişli tamaşaların hazırlanması prosesi teatrın yaradıcılıq imkanlarının inkişfına necə təsir göstərir ?***

- Əslində Dövlət sifarişi ilə tamaşaların hazırlanması yaxşı bir haldır və bu proses ümumi teatrların yaradıcılıq imkanlarının genişləndirilməsinə böyük təkandır. Ancaq təəssüf ki, hər dəfə də gözlədiyimiz kimi olmur. Məsələn, təyin olunduğum ilk ili məndən öncə direktor vəzifəsini muvəqqəti icra edən baş rejissor Musa Eyyubov Tuncer Cucenoğlunun "Dosye" əsərini dövlət sifarişilə hazırlanması üçün mədəniyyət nazirliyinə bir müraciəti olmuşdur. O əsər üçün il ərzində bütün yazışmaları mən də davam etdirərək çox çətin proseslərdən keçdim. İlin sonunda isə hansısa bəlli olmayan səbəbdən sifarişə vəsait ayırlmadı. Vəziyyəti belə gördükdən sonra daha heç bir tamaşa üçün sifariş yazmadım.

***- Beynəlxalq və Respublika miqyaslı Teatr Festivallarında iştirak etmək planlaşdırılırmı ?***

- Bəli, belə bir niyyətimiz var. Mənim quruluşumda hazırlanan "Arqon" pyesinin tamaşası ilə Pri-



baltika ölkələrinin birində keçiriləcək mono-tamaşa festivalına qatılmaq istəyirik. Xəzər Gəncəlinin bu yaxında hazırladığı "Pus-quda" pyesinin tamaşası ilə hər il Türkiyədə keçirilən "Beynəlxalq Qara Dəniz Teatr Festivalı"nda iştirak etmək niyyətindəyik.

***- Yeni kadr potensialının, gənc kadrların teatra cəlb edilməsi işi necə aparılır? Ümumiyyətlə gənclərin teatra cəlb edilməsi prossesi necə həyata keçirilir?***

- Yeni kadrların cəlb olunması məsələsinə gəlincə, bizim burada müəyyən çətinliyimiz hələ mövcuddur. Belə ki, aktrisa sarıdan qıtlıq çəkirik. Müəyyən yaş hüduduna çatmış aktrisaları əvəz edə biləcək qüvvələrimiz demək olar ki, yox dərəcəsindədir. Düzünü desəm, teatr studiyasının yaradılmasına havasu kimi ehtiyacımız var. Təəssüflər olsun ki, bəzi region teatrlarda studiyalar fəaliyyət göstərdikləri halda biz bu kimi imkanlardan yararlana bilmirik. Amma Bakı Dövlət Universitetinin Qazax filialının tələbələri arasında teatrla maraqlanan gəncləri cəlb etməklə onlarla söhbətlər edir, teatra gənc kadr potensialı olaraq cəlb etmək üçün çalışırıq. Mümkün qədər bu niyyətimizi reallaşdıra bilirik.

***- Teatra dəvətli rejissorların cəlb edilməsi məsələlərində maraq nə dərəcədədir?***

- Az öncə qeyd etdiyim kimi bizimlə Mirzə Nicat və Abdulla Soy kimi perspektivli rejissorlar əməkdaşlıq edirlər. Onlar bizim teatrda "Love butik" və "Səmirsiz" adlı standart olmayan qeyri-adi yaradıcılıq yanaşması xüsusiyyətləri ilə seçilən kreativ tamaşalara imza atıblar. Və bu tamaşalar paytaxt teatrsevər tamaşaçıları tərəfindən də rəğbətlə qarşılanıb. İndi bu rejissorlar üzümüzə gələn teatr mövsümündə də yeni tamaşalar hazırlamaq niyyətindədirlər. Bu məqsədlə Abdulla Soy "Ölülər", Mirzə Nicat isə "Uçqun" pyeslərinə səhnə təcəssümü verəcəklər. Yeri gəlmişkən Xəzər Gəncəlinin də teatrımıza gəlişi yeni bir yaradıcılıq atmosferi yaratmış, maraqlı tamaşaların ərsəyə gəlməsində az rol oynamamışdır. O, təcrübəli rejissor olmaqla yanaşı teatrda həm də yeri gəldikcə pedaqoji fəaliyyət də göstərir, teatrda çalışan gənclərə zaman-zaman teatr sənətinin, eləcə də aktyorluq sənətinin sirlərini öyrədir.

***- Bu gün teatrın tamaşaçı problemi məsələləri necə tənzimlənir ?***

- Təbii ki, region teatrında paytaxtdakı kimi könüllü bilet satışı ilə teatr saxlamaq çətin məsələdir. Ancaq mədəniyyət nazirliyinin, regional mədəniyyət idarəsinin, Qazax və ətraf rayonların həmkarlar ittifaqlarının dəstəyi ilə bilet satışı olur. Premyera və xüsusi vaxtlarda isə acıq qapı günləri təşkil edirik. Məhz bu səbəbdən də tamaşaçı baxımından elə bir şikayətimiz yoxdur. Təxminən 400 nəfərə yaxın tamaşaçı tutumu olan teatr salonumuz heç bir zaman boş olmur. Qazax tamaşaçısının teatra olan marağı günbəgün artmaqdadır. Xüsusilə tələbə, müəllim heyətindən ibarət tamasaçı kütləsi tez-tez tamaşalarımıza baxmağa gəlir, kollektivimizlə yaradıcılıq diskussiyasına girir, tamaşaları təhlil edirlər.

***- Teatrın texniki-maddi bazasının vəziyyəti müasir dövrlə ayaqlaşa bilirmi? Problemlər nədən ibarətdir?***

- Ölkənin demək olar ki, bütün teatrlarında olmuşam, dünya teatr binalarına baxanda müasir texnikaları nəzərə alanda bu problem bütün teatr-larımızda var. Amma teatrımıza gəldikdə isə bizim binamız yoxdur. Mədəniyyət mərkəzinin səhnəsini icarəyə götürmüşük, məşqlərimizi burda keçirir və tamaşalarımızı da burada göstərməli oluruq. Demək olar ki, rayonun ən böyük zalı Mədəniyyət mərkəzində olduğu üçün müəyyən dövlət tədbirləri, mədəniyyət mərkəzinin iclasları, musiqi məktəblərinin konsertləri də bu səhnədə baş tutur və çox vaxt plansız, xəbərdarlıq olmadan təşkil olunduğundan bizim tamaşa və məşqlərimizə ciddi şəkildə maneyə olur. Əlavə olaraq səhnənin hərlənən dairəsi olmadığı üçün çox pərdəli tamaşaları hazırlamaqda çətinlik çəkirik. Bununla da hadisələrin daha çox bir məkanda baş verdiyi lokal pyeslərə müraciət etməyi üstün tuturuq. Bildiyiniz əsas işıq sistemində də çatışmamazlıqlar mövcuddur. Ayrıca olaraq bu sahədə təcrübəli, işini peşəkarcasına bilən mütəxəssisə də ehtiyac duyulmaq-dadır. Səs sistemi, radist məsələsi də bizdə köks ötürəcək mövzulardan biri olaraq qalmaqdadır. Ümumiyyətlə, burada çalışan texniki heyətin peşəkarlığının artırılması teatrımızda ən aktual ciddi məsələlərdəndir. Ümumiyyətlə teatrımızda istər yaradıcı, istərsə də texniki heyətdə əsaslı re-formaya ehtiyac vardır. Vaxtı ilə kadr siyasətində yol verilən nöqsanlar zamanla aradan qaldırılmalı, işini peşəkar səviyyədə yerinə yetirən kadrlar teatra cəlb edilməlidir. Təbii ki, bu proseslərin reallaşması üçün isə illər lazımdır.



***- Yeni mövsümün uğurlarını nədə görürsünüz?***

- Yeni mövsumə ciddi cəhdlə hazıraşmaqdayıq. Amma uğur qazanmaq üçün çalışmaq və yalnız çalışmaq lazımdır. Bu istiqamətdə dəvət etdiyimiz rejissorların tamaşalarına böyük ümidlər bəsləyirik. Ötən illərdə əldə etdiyimiz müvəffəqiyyətləri təkrar etmək istəyirik. Əlavə olaraq yeni kadrların cəlb olunması məqsədi ilə studio teatrı təşkil etmək istəyirik. Həmçinin tamaşalarımızın təşkili üçün rayonlara qastrollar düşünürük və təbiiki, qarşıda gələn festivallara da hazırlıqlar gedir. Bir sözlə işlərimiz, plan-larımız çoxdur, növbə ilə hamısını həyata keçirmək niyyətindəyik.

**Anar Ərtoğrul Burcəliyev**
**Teatrşünas-tənqidçi**

# Azərbaycan Demokrat Firqəsinin 80-ci ildönümü

**1945-1946-cı illər İran Azərbaycanında Milli İstiqlal uğrunda mübarizənin ən qanlı, həm də şərəfli dövrü olmuşdur. İstibdad rejiminin əsarətindən qurtarmaq uğrunda başlayan bu mübarizənin alovu ara-sıra sөngimiş kimi görünsə də, heç vaxt sönməyib və qələbəyə qədər davam edəcəkdir. Bu mübarizənin başlanması Azərbaycan Demokrat Firqəsinin yaradılması hicri 12 Şəhrivər 1324-cü il, miladi tarixlə 3 sentyabr 1945-ci ildə ADF-nin tarixə "12 ŞƏHRİVƏR MÜRACİƏTNAMƏSİ" adı ilə həkk olunaraq 05.09.1945-ci il tarixində bəyan edildi. Bu tarixi bəyanatı Qüzeyli-Güneyli Azərbaycan ictimaiyyətinin, xüsusilə gənc və orta yaşlı nəslinə təqdim edirik:**



*(Əvvəli ötən sayımızda)*

Yuxarıda dediyimiz kimi, biz təzə bir iş başlamamışıq. İllərdir ki, Azərbaycanın aydınları Azərbaycan və İranın azadlıq və istiqlalının gizli və açıq şəkildə azərbaycanlıları mədəni muxtariyyət üçün mübarizə etmişlər. İndi demokratik ölkələrin qəhrəman cavanlarının mübarizəsi sayəsində faşizmin əsası yıxılmış və millətlərin başqa millətlər üzərində ağalıq nəzəriyyəsinin boş bir iddia olduğu sübuta yetmiş, bütün dünya millətlərinin sərbəst bir surətdə öz müqəddəratını təyin etmələri qanunlar, müqavilələr vasitəsilə elan olunmuşdur. Bu halda Azərbaycan xalqı və Azərbaycan azadlıqsevərləri çeşidli fərdlər halında mübarizəsini davam etdirə bilməzdi. Ona görə də bu mübarizəyə rəhbərlik etmək üçün möhkəm intizama malik bir firqə (partiya) təşkilatı yaranmalı idi. Azərbaycan Demokrat Fİrqəsi bu ehtiyacdan doğulmuş bir təşkilatdır. O təşkilat bütün demokratik və azadlıqsevər şəxsləri öz sıralarına dəvət etməklə bir ağır çəkili milli bir mərkəz yaradacaqdır. O Azərbaycan xalqını azadlıq hədəfinə doğru getməyə sövq etməklə, həm də İran xalqının tərəqqi və təkamül yolunu açmış olacaqdır. Əlbəttə, bu firqənin proqram və əsasnaməsi çox tezliklə konfrans tərəfindən qəbul edilib xalq arasında yayılacaqdır.

Bununla bərabər Təsisçilər Heyəti bu vasitə ilə firqənin əsas fikirlərini bütövlükdə xalqa elan etməklə onları öz sıralarına çağırmağa başlamışdır.

Əziz həmvətənlər! Budur, böyük tarixi mübarizə dövrü başlanır. Azərbaycan Demokrat Firqəsi hansı sinfə və təbəqəyə mənsub olmasından asılı olmayaraq, hamını öz təşkilatına üzv olmağa və müqəddəs milli mübarizə işində iştirak etməyə çağırır.

Bu firqənin qapıları oğrular və xainlərdən başqa bütün Azərbaycan xalqının üzünə açıqdır. Hər kəs bizim şüarlarımızı və məqsədlərimizi qəbul edərsə çox tezliklə özünü firqə təşkilatına üzv yazdırmalı və Azərbaycanın, bütövlükdə İranın azadlıq bayraqdarının sırasına daxil olmalıdır. Bizim şüarlarımız bunlardır:

1. İranın istiqlal və bütövlüyünü saxlamaqla bərabər Azərbaycan xalqına azadlıq və mədəni muxtariyyət verilməlidir ki, öz mədəniyyəti yolunda və Azərbaycanın abadlaşması və tərəqqisi üçün ümumilikdə ölkənin bütün ədalətli qanunlarına əməl etməklə bərabər öz taleyini təyin etsin.

2. Bu məqsədi həyata keçirmək üçün çox tezliklə Əyalət və Vilayət yığıncaqlarını təşkil edib işə başlamaq lazımdır. Bu yığıncaqlar mədəni, tibbi, iqtisadi sahələrdə fəaliyyət göstərməklə bərabər, bu baxımdan əsasən bütün



dövlət işçilərinin əməliyyatını təftiş edib, onların işdən kənarlaşdırılaraq, başqaları ilə əvəz edilməsi ilə əlaqədar fikirlərini açıqlasınlar.

3. Azərbaycanın ibtidai məktəblərində dördüncü sinifə qədər dərslər ancaq Azərbaycan dilində aparılmalıdır və dördüncü sinifdən başlayaraq yuxarı siniflərdə dövlət dili olmaq etibarilə fars dili də Azərbaycan dili ilə yanaşı tədris edilməlidir. Azərbaycanın Milli Universitetinin təşkili də Demokrat Firqəsinin əsas məqsədlərindən biridir.

4. Azərbaycan Demokrat Firqəsi sənayenin, fabrikaların genişlənməsinə ciddi çalışacaq və səy göstərəcək ki, mövcud fabrikaları təkmilləşdirməklə bərabər işsizliyi aradan qaldırılması, manufaktura və maşın sənayesini genişləndirmək üçün vasitələr əldə edərək yeni fabrikalar yaratsın.

5. Ticarətin genişlənməsini ADF-si çox zəruri və ciddi məsələlərdən hesab edir.

Bu günə qədər ticarət yollarının bağlı qalması çoxlu kəndlilərin, xüsusilə bağ sahiblərinin və kiçik sazibkarların sərvətlərinin əllərindən çıxmasına və onların dilənçi halına düşməsinə səbəb olmuşdur. Bunun qabağını almaq məqsədi ilə Demokrat Firqəsi bazar tapmaq və Azərbaycan əmtəələrinin xarici bazarlara çıxarılması üçün tranzit yolları axtarmaq işinə də ciddi başlamağı, bu vasitə ilə ümummilli sərvətin azalmasının qabağının alınmasını nəzərdə tutmuşdur.

6. Demokrat Firqəsinin əsas məqsədlərindən biri də Azərbaycan şəhərlərinin abadlaşdırılmasıdır. Bu məqsədə çatmaq üçün Firqə, çox tezliklə şəhər əncümənlərinin qanuni təsdiqini tapıb (burada əncümənlərə qanunla bələdiyyə statusu verilərək, bələdiyyələrə çevrilməsi nəzərdə tutulur) şəhər əhalisinə müstəqidl bir surətdə şəhərin abadlığına çalışıb onları səliqəyə salaraq müasir hala gəlməsinə imkan verilsin. Təbriz şəhərinin su ilə təmin edilməsi Azərbaycan Demokrat Firqəsinin çox təcili cari məsələlərindəndir.

7. ADF-nin təsisçiləri gözəl bilirlər ki, ölkənin məhsul istehsal edəni və iqtisadi qüvvəsi kəndlilərin qüvvətli qoludur. Ona görə Firqə kəndlilər arasında yaranan hərəkatı nəzərə almalıdır. Firqə səy edəcəkdir ki, kəndlilərin ehtiyaclarını qarşılamaq üçün əsaslı tədbirlər görülsün. Xüsusilə kəndli ilə sahibkarın arasında müəyyən bir hüdud təyin etmək və bəzi torpaq sahibləri tərəfindən ixtira edilmiş qeyri-qanuni vergilərin qabağını almaq Demokrat FİrqəsinIn təcili vəzifələrindəndir. Firqə səy edəcək ki, məsələ elə bir surətdə həll edilsin ki, həm kəndlilər razı qalsın, həm də torpaq sahibləri özlərinin gələcəyinə inam duyub, rəğbətlə kəndlərinin və öz ölkəsinin abadlığına çalışsınlar. Boş torpaqları, Azərbayanı tərk edib qaçan və Azərbaycan xalqının zəhmətlərinin məhsulunu Tehranda və sair şəhərlərdə istifadə edən torpaq sahiblərinin torpaqları, onların tezliklə Azərbaycana müraciət etməkdikləri halda, Demokrat Firqəsinin əsasnaməsinə müvafiq olaraq kəndlilərin ixtiyarına verilməlidir. Biz Azərbaycandan kənarda özlərinin təmtəraqlı həyatını təmin etməkdən ötəri sərvətini xaricə aparanları Azərbaycanlı hesab etmirik. Əgər onlar Azərbaycana qayıtmaqdan imtina etsələr, biz onlar üçün belə bir haqqı tanımırıq. Bundan əlavə Firqə çalışacaq ki, Azərbaycan kəndlilərinin əksəriyyəti torpaq və əkin alətləri ilə çox asan və sadə bir surətdə təmin edilsin.

8. Demokrat Firqəsinin mühüm vəzifələrindən biri də işsizliklə mübarizə etməkdir. İndidən bu təhlükə çox ciddi bir surətdə özünü göstərməkdədir. Gələcəkdə bu sel (proses) gündən-günə qüvvətlənəcəkdir. Mərkəzi dövlət və yerli məmurlar tərəfindən bu istiqamətdə heç bir iş görülməmişdir. Əgər proses bu minval ilə davam edərsə, Azərbaycan xalqının əksəriyyəti çətin bir duruma düşməyə məhkumdur. Firqə çalışır ki, bu təhlükənin qabağını almaq üçün ciddi tədbirlər görülsün. Hələlik fabriklərin yaradılması, ticarətin genişləndirilməsi, əkinçi təşkilatlarının təsis edilməsi, dəmir və şosse yollarının çəkilməsi kimi tədbirlər bu təhlükənin qarşısını xeyli almış olar.

9. Seçki qanununda Azərbaycan haqqında böyük zülm edilmişdir. Dəqiq məlumata görə bu ölkədə dörd milyondan yuxarı Azərbaycanlı yaşamaqdadır. Bu ədalətsiz qanuna əsasən Azərbaycana ölkənin Parlamentində 20 vəkil yeri verilmişdir. Bu qətiyyən mütənasib bir bölgü deyildir. Azərbaycan Demokrat Firqəsi səy edəcək ki, Azərbaycanın öz əhalisinin say nisbətinə uyğun vəkil seçmək hüququ olsun. Bu Təqribən Parlament nümayəndələrinin üçdə birini təşkil etmiş olar. ADFsi Parlamentə (məclisə) seçkilərin mütləq azad olması tərəfdarıdır. O dövlət məmurlarının, ölkə daxilində və xaricində yaşayan varlıların əhalini qorxutmaq, aldatmaq yolu ilə seçki prossesinə qarışmalarına ciddi müxalif olacaqdır. Gərək seçki prossesi bütövlükdə İranda eyni vaxtda başlayaraq, eyni vaxtda qurtarsın.

10. ADF dövlət idarələrinə soxulmuş pozğun, əyri və rüşvətxor şəxslərə qarşı ciddi mübarizə edəcək, dövlət məmurları arasında saf, düzgün, obyektiv insanları dəstəkləyəcək. Xüsusilə Firqə çalışacaq ki, onların maaşları, həyat şəraitləri elə təşkil edilsin ki, onlar üçün oğurluq, xəyanət etməyə bəhanə qalmasın. Onlar özlərinə abırlı həyat qura bilsinlər.

11. Demokrat Firqəsi səy göstərəcək ki, Azərbaycanda dolayısı ilə alınan vergilər ciddi surətdə azaldılsın. Yığılan vergilərin yarısından yuxarı hissəsi Azərbaycanın öz ehtiyaclarına sərf edilsin və dolayısı ilə yığılan vergilər ciddi surətdə azalsın.

12. ADF-si bütün demokratik dövlətlər, xüsusilə müttəfiqlərlə dostluq münasibətləri saxlamaq tərəfdarıdır. Bu dostluğu davam etdirmək üçün mərkəzdə və şəhərlərdə İran ilə müttəfiq demokratik dövlətlər arasında dostluğu pozmaq istəyən xain ünsürlərin əllərini ictimai, siyasi və dövlət işlərindən kənarlaşdırmağa çalışacaq. Demokrat Firqəsini yaradılanların əsl məqsədi budur. Biz ümidvarıq ki, hər bir vətənpərvər Azərbaycanlı, Azərbaycanın daxilində və ya xaricdə yaşamasından asılı olmayaraq bu müqəddəs məqsədə çatmaq üçün bizimlə həmfikir və əlbir olacaqdır. Təbii ki, insan əvvəl öz evini sahmana salmasa, məhəllə, şəhər və ya ölkə üçün işləyə bilməz. Biz əvvəl öz evimiz olan Azərbaycandan başlayırıq və inanırıq ki, Azərbaycanın islah və tərəqqisi İranın tərəqqisinə səbəb olacaqdır.

Vətənimiz bu vasitə ilə quldurların və mürtəcelərin əsarətindən xilas olacaqdır.

Yaşasın Demokratik Azərbaycan!

Yaşasın Müstəqil və Azad İran!

Yaşasın İran və Azərbaycan azadlığının həqiqi məşəldarı olan Azərbaycan Demokratik Firqəsi!

(imzalar) - 14 şəhrivər (05.09.1945)

***Qeyd:*** *İran Azərbaycanında uzun yüzilliklərdən bəri təhsil, yazı işləri, dövlət və hətta fərdi kargüzarlıq sənədləri, ədəbiyyat, mətbuat və s. fars dilində aparıldığından bəyanatın mətnində Azərbaycan dilində pərçim edilmiş çoxsaylı fars sözlərinin işlənməsinə, eləcə də, cümlə quruluşları və söz sonluqlarının Azərbaycan ədəbi dili qaydaları ilə tərs-mütənasib olan fars dili stilində yazıldığından, oxucularımızın bəyanatın mətnini dəqiq başa düşməsini asanlaşdırmaq məqsədilə bəyanatın mətninin məzmun və mahiyyətini olduğu kimi saxlamaqla Azərbaycan ədəbi dilinin qayda və tələblərinə uyğunlaşdırılmışdır.*

**Adilə Çernik-Bülənt,**
***Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin sədri***
***Firidun Ənuşirəvan oğlu İbrahimi,***
***İranlı Mühacirlər Cəmiyyəti İctimai Birliyinin sədri***

**Qarabağ yaylasının Dəlidağ zirvəsi (3616 m) boyunca uzanan Mıxtökən silsiləsinin şimal-şərqə ayrılan Ağqaya (3092 m) qurşağının 2000-2200 m hündürlüklü ətəklərində, quzeyə uzanan Sarıbulaq dağ sırasının Qaraqaya yamaclarından qopan Sağ Barıtlısu, Babayurd yaylaqlarından axan Sol Barıtlısu çayları Sarımsağlı dağının (2629 m) ətəklərində, Əyridağın qurtaracağında birləşərək Barıtlısu çayı kimi Başlıbel kəndinin ortasından axır.**




# Tutquncay hövzəsinin dumanlı-çənli tarixi yurdları...

Sarıbulaq qurşağının Qaraqaya qolunun bulaq sularından yaranan Sağ Başlıbel, Taxtayurd yaylaqlarından çağlayan Sol Başlıbel çayları da kəndin şimal-qərbində Daşbulaq yüksəkliyi yaxınlığında birləşərək kənddə Barıtlısu çayına qovuşur (30-40 km məsafə qət etməklə), əvvəlcə Qaraxançay adlanır, Türküsevən kəndində Qazıxan çayla qaynayıb-qarışıraq Tutqunçay adı ilə Tərtər çayının sağ qolunu təşkil edir.

Bu hövzədə həm də qədim yurdlardan Çovdar, Şahkərəm, Xallanlı, Alırzalar, Qaraxançallı...kəndləri yerləşir...və morfo-etno "soylar"/toponimlərinin ruhunda Türk-Müsəlman dünyadərkinin fəlsəfəsi və ailə-dil birliyinin coğrafi məna yükü minilliklərlə qorunub saxlanılmaqdadır (Daşkəsən rayonunda da Çovdar, Şahkərəm, eləcə də, Alıxançallı (mühasirədən qurtulan bir neçə ailə qarlı dağ yollarını keçərək bu kəndə yetişə bilmişlər) kəndləri var).

Əsrarəngiz dağ-meşə landşaftı, güllü-çiçəkli yaylaq örtüyünə qovuşan və eyni təbiət incilərindən-ağ örpəkli, sis damcılarla yer üzünə sərilən duman qatları, dağ yamacları, meşə talaları, gursulu çay qollarıyla (Qaraxançay, Dərindərə çayı, Dəlidağsu çayı, Binəninsuyu çayı, Yusifliyalsulu....) kəsişən, ərişarğac çoxsaylı yurdlardan biri də Başlıbel kəndidir, Dəlidağa yaxın binələri közərməkdə, su qarışıq od püskürən, mistik-sakral dəyərli Zülfüqarlı-İstisu ocağınmdan 15-20 km məsafədə uyumaqdadır, zəngin tarixi keçmişini və faciəvi günlərini yaşamaqla/yaşatmaqla....

Laləli yaylağının bulaqları, çay yataqlarının torpaqları, meşə örtüyünün yaşıl səltənəti...Başlıbel kəndinin təbii yaraşığıdır. Çay yatağının güney ətrafları tala-tala əkin yerləri-köbərlərlə (eni 20-40 m, uzunluğu 400-500 m) parçalanmışdı, el arasında "Taxtalar" (Göllər yeri, Yarğanın boynu, Hacı Abbasın yeri, Çala biçənəyi, Şahbazın biçənəyi...) deyilirdi. Münbit olduğu üçün əvvəllər bu yerlərdə yazlıq buğda əkilirdisə, 1970-ci ildən sonra yalnız təsərrüfatın (Xanlar adına kolxoz) tütün əkini altında istifadə olunmuşdur.

Haşiyə. Şahkərəm, Çovdar, Xallanlı və Başlıbel kəndlərini birləşdirən Xanlar adına kolxozun 1000 baş sağmal iri buynuzlu, 7000-8000 baş xırda buynuzlu davarı olub, Salyan rayonu ərazisində (Şirvan Dövlət Qoruğuna bitişik) qış otlaq sahələri var idi. Hər ailənin fərdi/şəxsi təsərrüfatında 50-60 baş xırda, 5-10 baş iribuynuzlu heyvan saxlanılırdı. Ailələrdə, tərəkəmə ocaqlarının milli-tarixi ənənələri qorunub saxlanılır, o cümlədən, xalçaçılıq sənəti inkişaf etdirilir, hər evdə ildə 3-4 xalça-gəbə toxunurdu.

Dəlidağın dumanlı-çiskinli yükündən su içdiyindən yaranan irilixırdalı çayları dəlisov-selli-daşqınlıdır, dar yataqlarına sığmayanda aşıb-daşır, məcralarına sığmırlar. 1981-1982-ci illərdə İstisu yatağından axaraq Tərtər çayına tökülən Bağırsaqdərə və Bağırsaqçay çayları daşmış, ətraf yaylaq binələri kürümüş, 20-25 nəfərin həyatına son qoymuşdur. Eyni ilə bu hövzənin də coxsaylı çay qolları birləşərək (Təkyurdsuyu çayı, Birəlisu (Qaraxançallısu) çayı, Xallantısu çayı...) dağ yamaclarında-Ağqayayada, Nehrəağzında, Haçaqayada, Mustafa tirəsində... sellər-daşqınlara səbəb olur.

Ağdərə-Kəlbəcərə yolundan ayrılan, Tutqunçay yatağı boyunca yüksək dağ qurşağına-Mıxtökən silsiləsinə doğru uzanan yol sonda Başlıbel kəndindən keçir və silsiləni dələrək dağbağrı yollarla Laçın rayonunun Qorçu kəndinə çatır. 1993-cü ildə"erməni" terrorçu-quldur dəstələri Tutqunçayının mənsəbi və Comərdli kəndi yaxınlığındakı qayaların içindən keçən, keçən əsrin 60-cı illərində tikilən yolu/tuneli (uzunluğu 200 m-ə çatan, eni 4-5 m, hündürlüyü 6 m) partlatmaqla bir çox kəndləri və on minlərlə əhalini mühasirədə saxlamışlar. Başlıbel kəndinin 2000 nəfər əhalisinin 73 nəfər dinc sakini uzun müddət kənddən 10 km aralıda,"Şırlan kahası"nda mühasirədə qalmış (gələrkən yolda 9 nəfər öldürülüb), nəticədə 18 apreldə düşmən hücumu ilə 14 nəfər girov götürülmüş, 18 nəfər (sıralarında Milli Ordunun iki əsgəri də olmuşdur, bir nəfər isə 1941-1945-ci illər müharibəsinin iştirakçısı, 93 yaşlı Ələsgər Kazımov idi) isə amansızlıqla qətlə yetirilmişlər.

Dini-iman ocaqlarının nəslindən Abbas Seyid Hüseyn oğlu (1926-1993) öz həyətində qətlə yetirilib, Əhməd Mir Fəttah oğlu (1936-1993) isə itkin düşmüşdür.

Başlıbel kəndinin tarixi səhifəsində Laçın nahiyəsinin tərəkəmə elatının, Böyük Seyidlər kəndinin 7 ailəsinin (xəlfə Seyid Alı, Kərbəlayı MirYusif, Seyid Abbas, Seyid Hüseyn, Seyid Əsəd...nəslindən olanlar) xüsusi yeri var. Kənd qəbirstanlığında "Seyidlər uyarlığı" deyilən hissəsində məzarları var ki, yaşı 350-400 ilə yaxındır (bu kəndlər arasında məsafə 100 km-ə çatır, dağ yolu ilə 60-70 km olar), əski daş ilmələrlə və hərflərlə "Qurani-Şərif" ayələrilə hüsnü naxışlanmış qəbir daşları qiymətli tarixi-memarlıq nümunələridir.

XVIII əsrin II yarısında Seyid Hüseyn və Seyid Məhəmməd tərəfindən Başlıbel kəndində tikdirilən üç gözdən ibarət ilk məscid ibadətgah olub

1918-ci ildə kəndin ağsaqqalı Hacı Mir Fəttah Gorus şəhəri istiqamətdən hücum edən hay-daşnak qulduru A.Ozanyana qarşı el müqavimətinin təşkilində köməklik üçün dəstəsi ilə Laçın nahiyəsinin Hacısamlı kəndinə-Sultan bəyin görüşünə gedib, yardımını təklif edib. Seyid Mir Fəttahın böyük təsərrüfatı olub, kəndin güneyində, 5-6 km yuxarıda "Hacı Salah zağası"nda bir neçə yüz baş davar saxlayırmış. Seyid nəslindən olan Hacının 1920-1930-cu illərdə mal-mülkü bir neçə dəfə müsadirə edilmişdir. Əlavə, Seyid Nəbi kahası, Seyid Mehdi kahası, "Şirvan kahası"...da dağın dibində daşdan tikilən sığınacaqlar idi, 500-600 baş davar tuturdu.

Başlıbel kəndinin əsasını qoyan 7 Seyid qardaşın biri Seyid Əsəd soyundan olan Hacı Salah də (1854-1932) dini-irfani hörmət sahibi olub. Bu nəsildən olan Seyid Əzimin ocağı isə el ziyarətgahı idi.



Xorasan şəhərində ali dini təhsil almış Molla Məhəmməd Mirzə oğlu (1887-1976) bölgənin tanınan ağsaqqalı və ruhanisi olub, zəngin kitabxanası var idi. 1993-cü ilin haydaşnak işğalında həmin qiymətli xəzinə quldurlar tərəfindən məhv edilmişdir. Dağıdılmış tarixi-maddi abidələr sırasında 450-500 illik yaşı olan kənd qəbirstanlığındakı daş naxışlarla ilmələnmiş, müxtəlif inanc təsvirli qəbirüstü sənduqə və baş daşları da olmuşdur.

Başlıbel kəndinin dini-irfani kəsimi içərisində Xorasan şəhərində dini təhsil alanların (3 nəfər) adları çəkilirdi-Molla Məhəmməd Mirzə oğlu dostu Seyid Mir Fəttah Hacı Salah oğlu (1871-1956) rəhmətə gedəndə 40 gün evində qalıb,"Qurani-Şərifi" oxuyub xətm etmişdir. Onun haqqında Şərabani Balakişi qızı (1898-1977), öz qızı Savad Mir Fəttah qızı (1936-2021) xeyli dəyərli bilgilər vermişdir.

Qarabağ Universitetinin dekanı Hüseyn Mirzə Molla Məhəmməd nəslindəndir....

Barıtlısu çayının kənd ərazisindən keçən hissəsində çoxlu su dəyirmanları olub, hayların işğalına kimi qalırdı-Seyid Yəhya dəyirmanı, Məşədi Tağı dəyirmanı, Qoşa dəyirman, Nəbi dəyirmanı, Kərbəlayı İsanın dəyirmanı, "Qoşa dəyirman" (məscidin yaxınlığında idi), Məşədi Əzimin dəyirmanı...

"Qoşa dəyirman"ın yanında haylar qoz ağacından xaç düzəldib (1,5-2 m boyda) basdırıblar işğal dövründəg.

Kəndin ətrafındakı güllü-çiçəkli, bərəkətli otlaq-örüş yerlərinin doğma-kökənli adları, hərəsinin hikmətli anlamı/mənası vardı-Güzdəkli yal, Aralıq çınqılın dibi, Əyri yurd, Yelli gədik, Qalaxlı, Əmrahın çalası, Hacı Abbas yeri, Dərə yurd, Ağ qaya, Dəlikdaş, Qaranın yurdu, Taxta yurd, İsrəfillər yer, Böyükdüz, Ağcaqız..

Ağa bulağı ilə bağlı el yaddaşının xatirələri yaddaşlarda qalmışdı....

Kəndin güneyindəki düzdə-Kövədə (eni 20-30 m, uzunluğu 100 m-ə çatan) yazlıq buğda əkilirdi, payızda qayıdan sürünü orda otarırdılar...

1964-cü ilə qədər 8-illik məktəb olub, Azərbaycan Dövlət Pedaqoji ali məktəbinin məzunu və müəllimi, filologiya elmləri namizədi məktəbə direktor təyin edilən (sonralar rayonda çıxan "Yenilikçi" qəzetinin redaktoru olub) Əli Mirzəyevin təşəbbüsü ilə Başlıbel kəndində orta məktəb həmin ildən sonra açıldı, təşəbbüskar özü və kənd əhalisini də işə cəlb etməklə sinif otaqlarının tikintisində iştirak etmişdir. Məktəbi bitirənlərin çoxu həkim, hüquqşünas, müəllim, mühəndis...kimi bütün sahələrdə çalışmışlar.

1993-2020-ci illərdə bu kəndin əhli-qövmü əsasən Bərdə rayonu, Əliyanlı kəndində, Gəncə şəhərində, eləcə də, Goranboy və İsmayıllı rayonlarının Qızılhacılı, Qalacıq kəndlərində, Zaqatala, Qax, Xızı, Quba Göygöl.... rayonlarında (ümumilikdə, 28 rayonda) məskunlaşmışlar....

***(Yazının hazırlanmasında həm də Kəlbəcər rayonu, Başlıbel kənd sakinləri, Seyid Əsəd nəslindən olan Heydər Sadıq oğlu Salahovun (1951) və Məhərrəm Xəlil oğlu Hüseynovun (1962) məlumatlarından istifadə olunub).***

**Qismət YUNUSOĞLU**
**Bakı Dövlət Universitetinin müəllimi**



# Tenqriçiliklə dinlərin fərqi

## *(Törə - Türk Anayasası)*

Dünyanın gəlişmiş xalqlarından geri qalmağımızın səbəbi düşüncəmizin geriçi olmasıdır. Düşüncəmiz niyə geridir? Çünki düşüncəmizi körpəlikdən ta bu günəcən, VII əsrdə ərəb Məhəmmədin qondardığı, bizi də əsarətinə almış geriçi Ərəb İslam Dini formalaşdırır, baxmayaraq ki, biz artıq XXI əsrdə yaşayırıq...
Dünya xalqlarının öncülləri artıq 236 ildir ki, uydurma xristian dini qaydalarıyla yox, gəlişmiş dünyəvi qanunlar əsasında yaşayırlar, uğurları da göz qabağındadır.
VII əsrdə aramsız davam edən ərəb işğalları - qaba qücü sonucunda 199 il Ərəb İslam Dini - yumçaq gücü qaydalarına ardıcıl zorlanan türklər isə, çoxlu cəhdlərə baxmayaraq, gömüldükləri bu geriçi İslam düşüncəsindən sonadək qurtula bilməmişlər...

*(Əvvəli ötən sayımızda)*

Türk törəsinin inanc tərəfi keçilən bir düşüncə, siyasi nəzəriyyə tarixidir. Dünyəvi tərəfi isə, uydurma olmadığından gərəklidir, bu gün də yaşadılmalıdır, çünki çağımızla uzlaşır. Göründüyü kimi, Türk törəsi 1295 il qabaq yazılmasına baxmayaraq, azca fərqlə bu gün də sosial dəyərini saxlayır və anlaşılandır. Sevindirici haldır ki, bu abidələrin olduğu yerlərə ərəb vəhşilərinin əli çatmamışdır. İndi görün ərəblər işğal etdikləri yerlərdə nə qədər maddi və mədəniyyət abidələrimizi məhv etmişlər...

Tenqri-qədim türklərdə məna yükücə bütün canlılara həyat verən enerji, qüdrət, güc anlamındadır. Tenqri-dünyəvi düşüncəyə, yəni varlığın fiziki çəkmə və itələmə xassəsinə, xarakterinə, maqnit qüvvəsinə, qravitasiya, ekslikIərin vəhdəti, başqa sözlə varlığı oluşdurma şərtlərinə çox yaxın anlamdadır. Bu baxımdan Tenqri-dinlərin uydurduğu, əslində olmayan Budda, İsanın Allahın oğlu olması , Allah (Ay Tanrısı Əl-İlah) və sair cəfəngiyyatlardan uzaq, reallığa yaxın olduğu qədər fərqli anlamdadır.

Tenqri-tenqriçilik-panteist, yəni doğaya, təbiətə münasibətdən irəli gələn, güman edilən düşüncədir. Tenqri-tenqriçilik-panteist düşüncə, Homo Sapiens adlı canlı-insan növünün yaranışından, onun dış, xarici qüvvələr qarşısında gücsüzlüyündən irəli gələn ziyançəkmə, qorxu faktorundan qurtulmaq ümidi və yaşamaq istəyindən doğur, oluşur. Bəzi panteist düşüncə - doğanın güman edilən ziyanından, təhlükəsindən "qorunmaq", onları özünə qarşı "zərərsiz etmək", "neytrallaşdırmaq" üçün nəinki heyvanları, hətta insanları qurban-"rüşvət" verir, özlərinin uydurduqları ayinləri icra etməklə özlərinə arxayınlıq imitasiya edir, özlərini toxtatmağa çalışırlar. Ancaq Tenqriçilikdə qurbanvermə ayinləri məlum deyil.

> Tenqri-tenqriçilik-panteist, yəni doğaya, təbiətə münasibətdən irəli gələn, güman edilən düşüncədir. Tenqri-tenqriçilik-panteist düşüncə, Homo Sapiens adlı canlı-insan növünün yaranışından, onun dış, xarici qüvvələr qarşısında gücsüzlüyündən irəli gələn ziyançəkmə, qorxu faktorundan qurtulmaq ümidi və yaşamaq istəyindən doğur, oluşur...

Tenqri-tenqriçilik-başqa sözlə, açunun-dünyanın materialist düşüncə əsasında qavranmasının, öyrənilməsinin yanlış da olsa ən ilkin, ibtidai formasıdır desək, yəqin səhv etmərik. Bu baxış içərikcə, yəni mahiyyətcə bilgi verə bilməsə də real görünəndən, faktlardan, təcrübədən irəli gələnləri yanaşı düzərkən fərqləri görməklə, gücsüzlükdən, əlacsızlıqdan, çıxılmazlıqdan çıxış yolunu- fikrən təbiət qüvvələrinə tapınmada görür, qəbul edir. Bu panteist baxışında qəsdən uydurma, yalan yoxdur, qorxudan, əlacsızlıqdan tapınma, səmimi-vicdanlı yanılma, güman var, yəni qavramda adamın ağlı bundan artığını kəsmir... ona görə də bu baxış sonuc etibarilə yanlış olsa da, lakin keçilən düşüncə süreci, prosesi, yolu səmimi, vicdanlı yanılma olduğundan bilimə, elmi düşüncəyə gedən dünyəvi yolun ilkin aşaması, mərhələsi kimi qiymətləndirilə bilər. Başqa sözlə, adam "bilmir ki, bilmir, (elə bilir ki, bilir...X.Ə.)"(Nəsrəddin Tusi,1201-1274).

Dövləti olmayan bu günkü qəbilələrin, tayfaların, xalqların təsirli, dağıdıcı təbiət qüvvələrinə münasibəti, düşüncəsi də eynən buna oxşar səviyyədədir. Bu olay, məsələ "Siyasi nəzəriyyələr tarixi" fənnində daha ətraflı öyrədilir.

Dinlərdə isə bunun əksidir. Çünki, dinlərdə iddialarına məntiqi sübut gətirilmədən, biləərəkdən, qəsdən yalan uydurulur, yalan danışılır, uyğun faktlar saxtalaşdırılır, öz dələduzluq marağına, niyyətinə uyğun təhrif edilir. Dinlər - uydurulduqları vaxtdan aldatdığı başqaları üzərində üstünlük əldə etmə xarakterli vasitədir, maşadır. Dinlər, ona uyanların, aldananların hesabına parazitcəsinə maddi və mənəvi gəlir əldə edən dələduzların şəbəkələnmiş, kriminal birliyidir.

Topluma xeyirliliyi, faydalı iş əmsallığı baxımından Tenqriçilik, dinlərlə müqayisədə daha az ziyanlıdır. Məsələn, Tenqriçiliyə, dinlərdəki kimi kriminal birlik demək olmaz, çünki onun daşıyıcıları,funksionerləri sayılan şamanlar (təkcə Türküstanda 12 min tenqriçi-şamanı ərəb Küteybə öldürmüşdür), baxış sistemi-tenqriçilik-şamanizm başqasının hesabına yaşayan parazitlər kimi təşkilatlanaraq dələduzluq şəbəkəsinə, mütəşəkkil kriminal dəstəyə, kriminal dövlətə, kriminal imperiyaya çevrilməmişdir. Əksinə, bunlar xüsusi qabiliyyətli bireylər-fərdlər-şəxslər şəklində, ayrılıqda fəaliyyət göstərmiş, Türk ağıl böyüklərimizin davamçıları, təbliğatçıları kimi soyun, tayfanın, xalqın, dövlətin birlik İdeologiyasını, Törəsini yaratmış, formalaşdırmış, qorumuş, yaymaqla yaşatmışlar.

Məsələn, Törədə, Tenqriçilikdə başqa dinlərdə, xüsusilə də Ərəbin İslam Dinində olduğu kimi - fərqli inancda olanları öldürmək, yandırmaq, işgəncə vermək, kütləvi qırmaq, kölə etmək, zorlamaq, ailəyə əsgər soxmaqla zorlamaq, cariyə etmək, ələ keçirilən düşmən malını, əmlakını, canını qənimət kimi halal saymaqla, alıb-satmaq, insan alveri üçün kölə bazarları yaratmaq kimi insanlığa, ləyaqətə, savaş qaydalarına sığışmayan vəhşiliklər, barbarlıq yoxdur. "Türk millətinin döyüşdə məğlub edib, məğlubiyyətini etiraf edən döyüşçülərin belə, mülkiyyət hüququnu tanıyıb ona əməl etməsi türk millətinin hüquq, humanizm, ədalət anlayışı və mədəni səviyyəsi indiyədək mövcud olmuş və mövcud olan bütün millətlərdən fərqini ortaya qoyur." (f.d.Arif Rəhimli)



**Məmmədxan ƏZİZXANLI**
**Keçmiş prokuror**

Xaqan titulu hamıdan bacarıqlı, birləşdirici olmaqla, bir növ Tenqrinin yerdəki real insan obrazı kimidir.

Yazdıqlarımın düzgünlüyünü bilmək üçün ərəbin Quranı ilə Türkün 33 bəndlik Törəsini oxumaq yetərlidir.

Tarixdən bildiyimiz kimi, Bilgə Kağanın Törədəki 33-cü Tapşırmasını, VII əsrdə, zəifləmiş Türk ulusunu yenən Ərəb İslam Orduları və Ərəb İslam Dini-Yumşaq Gücü pozmuşdur. Məntiqlə, özəl dünyəvi düzənimizi qaytarmaq, bilimə, dünyəviliyə, inkişafa, mədəniyyətə, başqa sözlə özümüzə dönmək üçün hər cür dindən, o cümlədən Ərəb İslam Dinindən, onun geriçi düşüncəsindən, yaşam tərzindən imtina edilməli, bilimə-elmə sarılmalıdır. Əziz oxucu indi seçim özünündür...